XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...



# BİNƏQƏDİ

№08 (145) | 13 may 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiymәti: 40 qəpik

Heydər Əliyev müasir Azərbaycanın memarı və qurucusudur

SƏH. 2

## Ulu öndərin xatirəsi yad edilib



Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, Ulu Öndərin doğmaları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, onun xatirəsini ehtiramla anıblar. Mərasimdə Azərbaycan Respublikasının dövlət himni səslənib.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoyublar. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzülüb.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

## Azərbaycan ilə Niderland arasında əlaqələr uğurla inkişaf edir

Prezident İlham Əliyev Niderland Krallığının iqtisadi işlər naziri Henk Kampın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Niderland Krallığının iqtisadi işlər naziri Henk Kamp ölkəmizdə və paytaxtımızda aparılan quruculuq işlərinin, tarixi memarlıq nümunələri ilə vəhdət təşkil edən müasir binaların onda böyük təəssürat yaratdığını məmnunluqla qeyd etdi. Henk Kamp Azərbaycanda Niderland şirkətləri üçün yaradılan şəraiti yüksək qiymətləndirdi.

Dövlət başçısı Azərbaycan ilə Niderland arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladı, ölkəmizdə xarici şirkətlərin, o cümlədən Niderland şirkətlərinin səmərəli fəaliyyət göstərməsi üçün bütün şəraitin yaradıldığını bildirdi. Paytaxtımızda nadir memarlıq abidələrinin qorunduğunu vurğulayan Prezident İlham Əliyev Füzuli küçəsindəki tarixi binanın yerinin Niderland şirkəti tərəfindən dəyişdirildiyini qeyd etdi.

Görüşdə kənd təsərrüfatı, ekologiya, alternativ enerji sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

TƏDBİR SƏH. 3



Ulu öndərin doğum günü münasibəti ilə ümumrayon iməciliyi

GÖRÜŞ SƏH. 5



Türkiyə nümayəndə heyəti Binəqədi rayonunda olub

CƏMİYYƏT SƏH. 6



Ölkəmizin sosial-iqtisadi tərəqqisində bələdiyyələrin rolu artır

# Heydər Əliyev Azərbaycan tarixində müstəsna xidmətlər göstərmişdir

Mayın 9-da Heydər Əliyev Mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə rəsmi qəbul təşkil edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.



Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib. Azərbaycan Qələbənin əldə olunmasındakı rolundan danışan Prezident deyib: «Altı yüz mindən çox Azərbaycan nümayəndəsi müharibədə iştirak etmiş, onlardan 300 mini həlak olmuşdur. Azərbaycan xalqı müharibə illərində qəhrəmanlıq göstərmişdir. Azərbaycanın bir çox nümayəndələri yüksək orden və medallarla təltif olunmuşlar. Arxa cəbhədə – Azərbaycanda böyük işlər görülmüşdür. Bizim zavodlarımızda hərbi texnika istehsal olunurdu. O texnika və silahlar ki, müharibənin ən ağır anlarında sovet ordusuna əvəzsiz xidmət edirdi. Azərbaycan neftçiləri bu illər ərzində yorulmadan çalışmış və sovet ordusunu yanacaqla təmin etmişlər.»

Ermənistan-Azərbaycan münaqişəsindən danışan dövlət başçısı qeyd edib ki, keçən ayın əvvəlində Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində Ordumuz uğurla əks-hücum əməliyyatı keçirmişdir: «İşğal olunmuş torpaqlarımızın bir hissəsi əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilmiş, təmas xəttindəki mövqelərimiz daha da möhkəmlənmişdir. Bu gözəl tarixi və parlaq qələbə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm».

Çıxışını davam etdirən prezident bildirib ki, mayın 10-da Ulu Öndərin anadan olmasının 93-cü ildönümünü qeyd edəcəyik: «Heydər Əliyev Azərbaycan tarixində müstəsna xidmətlər göstərmişdir, böyük tarixi rol oynamışdır. Təsadüfi deyil ki, 1978-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunanda məhz Heydər Əliyevin təkidi ilə Azərbaycan dili Konstitusiyaya ana dili kimi daxil edilmişdir. Heydər Əliyevin fəaliyyətini və böyük nailiyyətlərini nəzərə alaraq, o, Moskvaya dəvət edilmiş və ona çox böyük vəzifə verilmişdir – Sovet İttifaqının Baş nazirinin birinci müavini vəzifəsi. Super dövlətin Baş nazirinin birinci müavini vəzifəsi, əlbəttə, bir daha göstərirdi ki, Heydər Əliyev nə qədər istedadlı, peşəkar və işgüzar adam idi. Həmin illərdə o, fəal işləyirdi, bir çox sahələrə nəzarət edirdi və həmin sahələrdə böyük uğurlar əldə olunurdu.

Ancaq 1987-ci ildə Heydər Əliyev tamamilə əsassız olaraq bütün vəzifələrdən kənarlaşdırıldı. Bu, ona qarşı, eyni zamanda, Azərbaycana qarşı böyük ədalətsizlik və təxribat idi. Onun istefasından iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək haqqında məsələ qaldırmışdılar.

Azərbaycan xalqına qarşı növbəti təxribat 1990-cı ildə törədilmişdir – Qanlı Yanvar cinayəti. Günahsız insanlar öldürülmüşdür, qətlə yetirilmişdir. 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş böyük cinayətdir.

O illərdə ölkəmizdə vəziyyət tənəzzülə uğrayırdı. Siyasi böhran iqtisadi böhranla tamamlanırdı. Xalq arasında o vaxtkı iqtidara inam tamamilə tükənmişdi. Müstəqilliyimiz üçün ən ağır anlarda yenə də Heydər Əliyev öz xalqının yanında idi. Öz xalqına rəhbərlik etməyə razılıq vermişdir. 1993-cü ildən başlayaraq, Azərbaycanda bütün sahələrdə dönüş yarandı. Vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərksilah edildi. Azərbaycanda qayda-qanun yaradıldı və ölkə inkişaf dövrünə qədəm qoydu.

Ondan sonrakı dövr – 1993-2003-cü illəri əhatə edən dövr inkişaf, sabitlik dövrü olmuşdur. Azərbaycanda siyasi sistem formalaşmışdır. Konstitusiya qəbul olunmuşdur. Azərbaycan dünyaya öz imkanlarını təqdim etmişdir. “Əsrin kontraktı” imzalanmışdır. Sonra isə “Şahdəniz” qaz yatağının işlənməsi üzrə kontrakt imzalanmışdır. Demokratik islahatlar aparılmağa başlanılmışdır. Məhz o illərdə milli ideologiyamız – Azərbaycançılıq məfkurəsi formalaşmışdır ki, bu gün də bütün Azərbaycan xalqını birləşdirir. Azərbaycanda çoxmillətli, çoxkonfessiyalı cəmiyyətin inkişafı və buna güclü təkan verilməsi prosesi başlanmışdır.

1993-2003-cü illərdə Azərbaycanda dövlət quruculuğu prosesi uğurla getmişdir, dövlətin əsasları qoyulmuşdur. Məhz buna görə biz həmişə deyirik ki, Heydər Əliyev müstəqil Azərbaycanın banisidir. Hər dəfə o tarixi yada salaraq, təəssüf hissi ilə qeyd edirik ki, əgər müstəqilliyimizin ilk illərindən Heydər Əliyev hakimiyyətdə olsaydı, bizim ölkəmiz Dağlıq Qarabağ problemi ilə üzləşməzdi. O, heç vaxt imkan verməzdi ki, orada separatçılar baş qaldırsınlar. Heç vaxt imkan verməzdi ki, xalqımıza qarşı bu qanlı cinayət törədilsin.

Müstəqilliyimizin ilk illərində baş vermiş hadisələr bizə çox baha başa gəldi. O hadisələri yada salarkən bir daha görürük ki, bu gün Azərbaycan sözün əsl mənasında inkişaf yolundadır.

2003-cü ildən sonra Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siya

Qarşımızda duran əsas vəzifə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz bu istiqamətdə həm siyasi, həm diplomatik və digər amillərdən istifadə edərək öz mövqeyimizi danışıqlar prosesində gücləndiririk. Haqq-ədalət bizim mövqeyimizi dəstəkləyir, müdafiə edir. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır, hüquqi cəhətdən Azərbaycanın ayrılmaz hissəsidir. Beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr bizim mövqeyimizi gücləndirir və müdafiə edir.

# Azərbaycan Prezidenti İlham Əliyev ağacəkmə kampaniyasında iştirak edib

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun 29-30-cu kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak ediblər.



Dövlətimizin başçısı və xanımı əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış olublar.

Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov Prezident İlham Əliyevə nazirlik tərəfindən 2008-2016-cı illər ərzində salınmış və damcılı suvarma sistemi ilə təchiz edilmiş yaşıllıqlar barədə məlumat verdi. Bildirildi ki, həmin müddətdə Bakı-Şamaxı magistral avtomobil yolunun ətrafında 622 mindən, Bayıl yamacında 463 mindən artıq, Bakı-Qazax magistral avtomobil yolunun Ələt-Hacıqabul hissəsində 1 milyon 600 minə yaxın, Bakı-Quba magistral avtomobil yolunun ətrafında 680 mindən çox, Bakı-Astara magistral avtomobil yolunun Ələt-Salyan hissəsində 500 minə yaxın ağac əkilib. Beləliklə, 2008-2016-cı illərdə respublika ərazisində nazirlik tərəfindən sahəsi 3776 hektar, uzunluğu isə 190 kilometr olan ərazidə ümumilikdə 4 milyon 826 mindən çox ağac əkilərək onlara zəruri aqrotexniki qulluq göstərilib.

Qeyd olunub ki, yaşıllıqlar salınarkən zeytun ağaclarına daha çox üstünlük verilib. Buna görə də hazırda bu ağacların əkildiyi sahələr son yüz ildə Azərbaycanda salınmış zeytun bağlarının sahəsindən üç dəfə çoxdur. Əkilmiş zeytun ağaclarının sayı isə artıq 1 milyon 268 mini keçib. Son səkkiz ildə nazirlik tərəfindən yaşıllıq sahələrinə 11 min kilometr uzunluğunda damcılı suvarma xətləri çəkilib.

Dövlətimizin başçısına məlumat verildi ki, indiyədək Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun ətrafında ümumi sahəsi 969 hektar, uzunluğu isə 20 kilometr olan ərazidə 58 növdə bir milyondan artıq ağac əkilib. Onların arasında zeytun, Eldar şamı, sərv, tuya, oleandr, Arizona sərvi, akasiya, göyrüş, lələk, tut, nar, badam, sarağan, meliya və digər ağac növləri var.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ərazidə ağac əkiblər.

Dövlətimizin başçısı və xanımı ağacəkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdiriblər.

Ərazisi 12 hektar olan bu yaşıllıq sahəsində mayın 10-da ümumilikdə 10 minə yaxın zeytun, Eldar şamı, sərv, Arizona sərvi, mavi küknar, limon sərvi, leylandi ağacları əkilib.

# "Heydər Əliyev müasir Azərbaycanın memarı və qurucusudur" mövzusunda elmi-nəzəri konfrans

Mayın 5-də Binəqədi Rayon İcra Hakimiyyəti və YAP Binəqədi rayon təşkilatının birgə təşəbbüsü ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev müasir Azərbaycanın memarı və qurucusudur" mövzusunda elmi-nəzəri konfrans keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, millət vəkilləri Madər Musayev, Kəmaləddin Qafarov, Nizami Cəfərov, Mixail Zabelin, Şəmsəddin Hacıyev, Eldar İbrahimov, Elman Nəsirov və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Öncə tədbir iştirakçıları ümummili liderin abidəsi önünə gül dəstələri qoyub və onun əziz xatirəsini anıblar. Konfrans ulu öndər Heydər Əliyevə həsr olunmuş sənədli filmin nümayişi ilə başlanılıb.





Tədbirdə çıxış edən professor Nizami Cəfərov "Heydər Əliyev – Azərbaycan ədəbiyyatının hamisi kimi" məruzəsində ulu öndərin xalqımıza göstərdiyi misilsiz xidmətlərindən danışıb. O bildirib ki, Heydər Əliyev böyük ideyaları həyata keçirərək ədəbiyyatımıza, milli-mənəvi dəyərlərimizə xüsusi diqqət ayırırdı: "Heydər Əliyev Azərbaycan dilinə böyük məhəbbət bəsləyib, xalq mənəviyyatı, psixologiyası, ədəbiyyatı, mədəniyyəti - bütün bunların daşıyıcısı olan ana dilimizə dərindən bələd olub". Qeyd olunub ki, ulu öndər hakimiyyətdə olduğu illərdə yazıçı və şairlərimizin yubileylərinin təntənəli şəkildə keçirilməsinə, əsərlərinin çap olunmasına, mükafatlandırılmasına, heykəllərinin ucaldılmasına, məişət şəraitlərinin yaxşılaşdırılmasına böyük önəm verib: "O, həmçinin, bəzi şair və yazıçılarımızı həbsdən qurtarıb, uzun müddət qadağa qoyulan əsərlərin çap edilməsinə nail olub, senzura qadağalarını ortadan qaldırıb. Ulu öndər ölkəmizə birinci rəhbərliyi illərində Nizami Gəncəvi yaradıcılığına xüsusi əhəmiyyət verərək böyük şairin yubileyinin keçirilməsi haqqında iki qərarın verilməsinə nail olub. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin UNESCO xətt ilə bütün dünyada keçirilməsi Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Hüseyin Cavidin nəşinin Naxçıvana gətirilib orada möhtəşəm xatirə kompleksinin ucaldılması da məhz ulu öndərin təşəbbüsü ilə baş verib. Azərbaycan yazıçılarının qurultaylarında məzmunlu, təkrarolunmaz çıxışları ilə yadda qalan Heydər Əliyev ədəbi hadisələrə bir mütəxəssis kimi yanaşıb. Sovet dönəmində məhz onun səyi və təşəbbüsü sayəsində bir qrup yazıçıya keçmiş SSRİ-nin ən böyük mükafatı olan Sosialist Əməyi Qəhrəmanı fəxri adı verilib".

"Heydər Əliyev – multikulturalizm dəyərlərinin hamisi" mövzusunda çıxış edən Mixail Zabelin ulu öndərin müstəqil Azərbaycan üçün çox böyük siyasi irs qoyduğunu vurğulayıb: "Heydər Əliyevin irsi həm multikultural və tolerant dəyərlər baxımından, həm də digər istiqamətlərin tədqiqi baxımından böyük əhəmiyyətə malikdir. Bu gün Azərbaycanda fərqli dinə mənsub insanlara, müxtəlif etnik qruplara dövlət səviyyəsində hər cür şərait yaradılıb. Sevindirici haldır ki, ulu öndərin multuikulturalizm istiqamətində vaxtilə həyata keçirdiyi bu siyasət Azərbaycanla məhdudlaşmır. Bu siyasət indi bütün dünyaya sirayət edən bir siyasət kimi Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir". Natiq xatırladıb ki, Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Konstitusiyanın bir sıra maddələrində aydın şəkildə təsbit edilib.




"Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyası" mövzusunda çıxış edən Şəmsəddin Hacıyev Azərbaycanın iqtisadi inkişafında Heydər Əliyev faktorunun rolundan danışaraq bildirib ki, 1969-cu ildə ölkəmizdə hakimiyyətə gələn Heydər Əliyev respublikamızı iqtisadi tənəzzüldən inkişaf yoluna doğru apardı və qısa bir müddətdə Azərbaycan böyük uğurlara imza atdı: "Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə yeni iqtisadi yüksəliş başlanıldı, ölkə iqtisadiyyatına xarici investisiyalar yatırıldı, digər sahələrdə olduğu kimi, bu sahədə də köklü dəyişikliklərin aparılması üçün yeni imkanlar yarandı. Bu mərhələdə ilk növbədə gələcək müstəqil və güclü iqtisadi siyasətin zəminləri yaradıldı. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

1993-cü ilin yarısından başlayaraq aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmin olunması, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı və bununla da Azərbaycanın iqtisadi inkişafında mahiyyətcə yeni mərhələnin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən geniş miqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü və Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi. Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfatı sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Ən əsası isə bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli - Azərbaycan modeli yaradıldı".

"Heydər Əliyevin aqrar inkişaf konsepsiyası" mövzusunda çıxış edən Eldar İbrahimov ümummilli liderin hər bir azərbaycanlıya örnək olan, müasir tariximizin ən şanlı və parlaq səhifələrini yazan zəngin dövlətçilik fəaliyyətindən, cəmiyyət həyatının bütün sahələrində onun rəhbərliyi ilə həyata keçirilmiş köklü islahatlardan danışıb. E.İbrahimov Azərbaycanın iqtisadi, hərbi qüdrətinin artırılması, dövlət təsisatlarının möhkəmləndirilməsi sahəsində Heydər Əliyevin misilsiz xidmətlərini qeyd edərək, dahi şəxsiyyətin siyasi kursunu bu gün Prezident İlham Əliyevin uğurla və qətiyyətlə davam etdirdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, Heydər Əliyev Azərbaycanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq oldu: "Adı heç yerdə çəkilməyən Azərbaycanı qısa müddətdə sovet respublikaları arasında ön sıralara çıxarmağa, ən sürətlə inkişaf edən bir ölkəyə çevirməyi bacaran ümummilli lider mərkəzi hökumətdən İttifaq əhəmiyyətli bir sıra iri sənaye obyektlərinin Bakıda, eləcə də digər şəhərlərimizdə tikintisinə icazə aldı. Ulu öndərin gərgin əməyi nəticəsində 1969-1982-ci illərdə Azərbaycanda iqtisadi inkişafın təməli qoyuldu, xalq təsərrüfatının bütün sahələrinin ahəngdar işi təmin olundu. Bu, Heydər Əliyevin bacarıqlı rəhbər, peşəkar siyasətçi olmaqla yanaşı, həm də respublikanın xalq təsərrüfatına dərindən bələd olmasının əyani təcəssümü idi. Azərbaycanda aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı. Respublikamızda savadlı kadrların yetişdirilməsi, gənclərin elmin və təhsilin əsaslarına yiyələnmələri üçün Heydər Əliyevin gərgin səyi nəticəsində on minlərlə azərbaycanlının keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaları təmin edildi. Bütövlükdə isə ulu öndərin 14 illik fəaliyyəti ərzində Azərbaycanda həyatın bütün sahələrində yüksək inkişaf, tərəqqi baş verdi. İqtisadiyyatın, elm və incəsənətin, səhiyyə sahələrinin sürətli inkişafı, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər Azərbaycanı keçmiş müttəfiq respublikalar sırasında öncül yerlərə çıxartdı".



Elman Nəsirov "Heydər Əliyev – Azərbaycanı beynəlxalq müstəvidə tanıdan şəxsiyyət" mövzusunda etdiyi çıxışda bildirdi ki, ötən əsrin sonlarında sosializm sisteminin uğursuz sonluğu və sovetlər birliyinin süqutu nəticəsində yeni dünya düzəninin formalaşması yenicə müstəqillik əldə etmiş ölkələri siyasi oriyentasiya problemi ilə üz-üzə qoymuşdu: "Həmin dövrdə Azərbaycanda, digər sahələrdə olduğu kimi, xarici siyasətdə də qarışıqlıq mövcud idi. Dövlətin xarici siyasət konsepsiyasında ardıcıllığın, prinsipiallığın olmaması ölkə daxilindəki problemlərin daha geniş vüsət almasını şərtləndirir, respublikanın düşdüyü gərgin situasiyadan çıxmasına əngəl törədirdi. Lakin dünya şöhrətli siyasətçi, siyasi gerçəklikləri dərindən analiz etmək və nəticə çıxarmaq qabiliyyətinə malik olan ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə tarixi dönüşü xarici siyasətdə də yeni pəncərə açdı. Məhz Heydər Əliyevin ciddi səyləri nəticəsində bölgədə və ümumilikdə dünyada Azərbaycana münasibəti müsbətə doğru dəyişmək mümkün oldu. Dövlət başçısının xarici ölkələrə ardıcıl səfərləri, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri ilə keçirdiyi görüşlər, aparılan gərgin işlər sayəsində qısa zaman ərzində Azərbaycan dünyada tanınmağa başlandı. Bu gün müşahidə etdiyimiz gerçəklikləri o dövrün çətin reallıqları ilə müqayisə etdikdə görərik ki, Heydər Əliyev ölkəmizin qarşısında duran problemləri az bir vaxt ərzində uğurla həll edə bilmişdir. Əgər ötən əsrin sonlarında qazanılmış dövlət müstəqilliyinin ilk illərində Azərbaycanın, sadəcə, siyasi kuluarlarda tanınan bir ölkə olduğunu nəzərə alsaq, bu gün aypara ulduzlu, üç rəngli bayrağın hansı dövlətin rəmzi olduğunu artıq bütün dünyanın dərk etməsinə, sadəcə, sevinməklə kifayətlənməyib, bundan həm də qürur hissi keçirməliyik".



"Heydər Əliyev və vətəndaş cəmiyyəti institutlarının formalaşması" mövzusunda çıxış edən Azay Quliyev xatırlatdı ki, ümummilli lider böyük dövlətçi, siyasi xadim və dahi şəxsiyyət olaraq nəinki ölkənin müstəqilliyini qoruyub saxlaya bildi, həm də ona dönməz xarakter verdi, Azərbaycanı dünyaya açdı: "Ulu öndərin hakimiyyətə qayıdışı ilə Azərbaycanda həyatın bütün sahələrində köklü dəyişikliklərə, islahatlara start verildi. Ümummilli lider müharibəni səngərlərdən diplomatiya müstəvisinə keçirməklə həm də ölkədə möhkəm ictimai-siyasi sabitliyi bərpa etmək istiqamətində çox ciddi tədbirlər həyata keçirdi. Ölkədə həyati əhəmiyyətə malik ictimai-siyasi sabitlik bərqərar edildikdən sonra - 1995-ci ildə ulu öndərin müəllifliyi ilə vətəndaşlara birləşmək, istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı, digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququnu özündə əks etdirən, həmin birliklərin sərbəst fəaliyyətinə tam təminat verən ölkə Konstitusiyası qəbul olundu. Bundan sonra dövlət strukturları Konstitusiya ilə üzərlərinə qoyulan vəzifələri həyata keçirməyə başladı. Azərbaycan dövləti və cəmiyyətinin idarə olunması beynəlxalq, bəşəri, sivil prinsiplərə istiqamətləndirildi, ölkəmiz hüquqi-demokratik dövlət quruculuğu yolunda inamla addımlamağa başladı".

Tədbirdə "Heydər Əliyevin idarəetmə məktəbi" mövzusunda çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov ulu öndər Heydər Əliyevin hər bir azərbaycanlının həyatında dərin iz qoyduğunu vurğulayıb. Bildirib ki, bu gün hər birimiz dahi rəhbərin qurub yaratdığı, dünyaya tanıtdığı müasir müstəqil Azərbaycanın vətəndaşları olmağımızla fəxr edirik. Heydər Əliyev vətənpərvərliyi, mərdliyi, mübarizliyi ilə həmişə bizim üçün nümunədir və Azərbaycan xalqının əbədiyaşar lideri kimi daim qəlbimizdə yaşayacaq: "Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi və onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz ulu öndər Heydər Əliyevin misilsiz fəaliyyəti sayəsində mümkün olmuşdur. Öz xalqına sədaqətlə xidmət etmiş ümummilli liderimizin ömür yolu hər bir azərbaycanlı üçün örnəkdir və əminliklə demək olar ki, Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyev bu ideyaları uğurla davam etdirir".

Çıxışlardan sonra C. Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi ümummilli lider Heydər Əliyevin irsinin öyrənilməsi və təbliğində xidmətlərinə görə, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Fəxri fərmanı ilə təltif olunub.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Ulu öndərin doğum günü münasibəti ilə ümumrayon iməciliyi





Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə paytaxtın Binəqədi rayonunda ümumrayon iməciliyi keçirilib. Ulu öndərin doğum günü ilə bağlı hər il təşkil edilən Gül bayramı bu dəfə də maraqlı və yaddaqalan olub. May ayının 7-dən başlayaraq rayonun bütün park və xiyabanlarında idarə, müəssisə və təşkilatların kollektivləri, bələdiyyələr və ictimaiyyət nümayəndələrinin iştirakı ilə iməciliklər keçirilib. Aksiyalar zamanı rayon ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, 50 mindən çox gül və bəzək kolları əkilib. Mövzu və kompozisiya baxımından ildən-ilə zənginləşən Gül bayramında təbii güllər və çiçəklərdən ibarət kompozisiyalar hazırlanıb. Eyni zamanda, müxtəlif gülləri və çiçəkləri ifadə edən al-əlvan geyimli körpələrin aksiyalarda iştirakı rayon sakinlərində xoş ovqat yaradıb.

Mayın 10-da isə Binəqədi rayonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə genişmiqyaslı ağacəkmə aksiyası keçirilib. Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xocəsən qəsəbəsində yerləşən Bakı Atıcılıq Mərkəzinin ətrafında təşkil olunan aksiyaya RİH başçısı Aparatı, YAP rayon təşkilatı, eləcə də bütün idarə, müəssisə və təşkilatların kollektivləri cəlb olunub. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun da iştirak etdiyi tədbirdə 1500-dən çox Eldar şamı və digər yerli iqliməuyğun ağac tingləri əkilib. Aksiya zamanı ərazidəki yaşıllıq sahələrində təmizlik işləri aparılıb, yeni əkilən ağaclar suvarılıb və onlara aqrotexniki qaydada qulluq göstərilib. Əkilən ağacların inkişafı üçün, həmçinin onların küləkdən qorunması və mühafizəsi məqsədilə zəruri tədbirlər görülüb. Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə təşkil olunan ağacəkmə aksiyasında əsas məqsəd ulu öndərin hər zaman xüsusi önəm verdiyi yaşıllıqları daha da genişləndirmək, ekoloji tarazlığı bərpa etmək, insanlar arasında ekoloji mədəniyyəti və təbiətə qayğı hissini təbliğ etməkdir.

# Böyük Vətən müharibəsi veteranları ilə görüş



Mayın 6-da Binəqədi rayonunda 1941-1945-ci illər - Böyük Vətən müharibəsində alman faşizmi üzərində Qələbənin 71-ci ildönümü münasibətilə tədbir keçirilib. Çay süfrəsi ətrafında təşkil olunan tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavini Vüsar İsmayılov, Aparatın məsul şöbə müdiri və əməkdaşları, Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, İctimai Şuranın sədri Aslan Mehdiyev və rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri iştirak ediblər.

Veteranlar qarşısında çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının misilsiz xidmətlər göstərdiyini vurğulayıb, həmyerlilərimizin ön və arxa cəbhədə göstərdiyi qəhrəmanlıq və şücaətlərdən danışıb. Qeyd olunub ki, məhz ulu öndər Heydər Əliyev 1993-cü ildə respublikamıza rəhbərliyə qayıtdıqdan sonra o zaman az qala unudulmaqda olan 9 May - Qələbə Günü yenidən dövlət bayramları sırasına daxil edilib və bu gün də ümummilli liderin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezident İlham Əliyev tərəfindən Böyük Vətən müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsi sahəsində xeyli işlər görülüb.

Akif Rəfiyev çıxışında son illər ölkəmizdə əhalinin, o cümlədən müharibə veteranlarının sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini, xüsusi qayğıya ehtiyacı olanların dövlətin diqqət və qayğısı ilə əhatə edildiyini bildirib. Aslan Mehdiyev isə vurğulayıb ki, Azərbaycanda Böyük Vətən müharibəsi veteranlarına yüksək dövlət qayğısı göstərilir və bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. O, həmçinin bildirib ki, bu diqqətin əsas göstəriciləri veteranların sosial qayğılarının həlli istiqamətində görülən mütərəqqi işlərdir.

Sonda tədbirdə iştirak edən Binəqədi Rayon Böyük Vətən Müharibəsi Veteranları Şurasının üzvləri dövlətimizin öz vətəndaşlarına göstərdiyi bu qayğının onlar üçün mənəvi dayaq olduğunu deyiblər.

# Sakinlərin problemləri diqqət mərkəzindədir



Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyi sakinlərlə mütəmadi səyyar görüşləri davam etdirir. Bu günlərdə 283 saylı məktəbin akt zalında təşkil olunan görüşdə 7-ci mikrorayon sakinləri iştirak ediblər.

İcra hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, RİH başçısının müavini Vüsar İsmayılov, Aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq-mühafizə orqanlarının, dövlət idarə, müəssisə və təşkilatlarının, xidmət sahələrinin rəhbərlərinin qatıldığı tədbirin əvvəlində son günlər cəbhə xəttində baş vermiş hadisələr zamanı şəhid olmuş hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

İ.Süleymanov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən abadlıq-quruculuq işlərindən, sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlərdən söhbət açaraq bildirib ki, son illər ölkəmiz böyük iqtisadi uğurlara imza atıb. Artıq Azərbaycan öz iqtisadi göstəricilərinə görə bir sıra inkişaf etmiş ölkələr sırasındadır.

O, Azərbaycanın digər bölgələrində olduğu kimi, Binəqədi rayonunda da mütəmadi olaraq abadlıq işlərinin həyata keçirildiyini görüş iştirakçılarının diqqətinə çatdırıb: “Rayonun digər ərazilərində olduğu kimi, 7-ci mikrorayonda da abadlıq-quruculuq işləri həyata keçirilib və bu proses indi də davam edir. Görülən işlərlə yanaşı, mikrorayon ərazisində müəyyən problemlərin olduğunu da bilirik və onların həlli istiqamətində fəaliyyətimizi davam etdiririk”.

Görüşdə çıxış edən mikrorayon sakinləri yaşadıqları ərazidə gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş ediblər.

Şikayətçiləri diqqətlə dinləyən icra hakimiyyəti başçısının birinci müavini sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verib.

# “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda tədbir



Mayın 5-də Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, millət vəkili Azay Quliyevin iştirakı ilə “Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda gənclərlə görüş keçirilib. Çay süfrəsi ətrafında təşkil olunan tədbirdə ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə reallaşan və hər kəs tərəfindən bəyənilən “Ölkəmizi tanıyaq” layihəsində iştirak edən Binəqədi məktəbliləri, onların valideynləri və müəllimləri, eləcə də fəal gənclər iştirak ediblər.

“Ölkəmizi Tanıyaq” layihəsi haqqında tədbir iştirakçılarına geniş məlumat verildikdən sonra məktəblilərin tur-aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikasına baş tutan səfəri barədə video-çarx nümayiş olunub.

Tədbirdə çıxış edən Xaləddin İsgəndərov və Azay Quliyev ümummilli lider Heydər Əliyevin öz siyasətində daim gənclərə qayğı göstərməsindən, onların bir fərd kimi yetişməsinə xüsusi önəm verməsindən və ulu öndərin respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində gördüyü misilsiz işlərdən danışıblar.

Daha sonra “Ölkəmizi tanıyaq” layihəsi iştirakçıları olan Binəqədi məktəblilərinin birliyini simvolizə edən tort kəsilib. Tədbirdə iştirak edən məktəblilər, onların valideynləri və müəllimləri layihə barədə təəssüratlarını bölüşərək, müasir Azərbaycan gəncliyinə yaradılan bu imkanlara görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər.

Sonra tur-aksiya çərçivəsində Naxçıvan MR-də Binəqədi rayonunu layiqli təmsil etdiklərinə görə məktəblilərə sertifikatlar təqdim olunub, xatirə şəkli çəkdirilib.

# İcra hakimiyyətində “Açıq qapı” vətəndaş forumu



Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, ictimaiyyətin iştirakının genişləndirilməsi tətbiqi əsas prinsiplərdəndir. Dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədilə “Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı” təsdiq edilmiş və plana əsasən, Binəqədi rayonunda bu istiqamətdə tədbirlər həyata keçirilməkdədir.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun yerlərdə sakinlərlə keçirdiyi mütəmadi səyyar görüşlər əhalinin problemlərinin həllində mühüm rol oynamaqla yanaşı, qəbul edilən qərarlarda, görülən işlər və atılan addımlarda ictimaiyyətin iştirakına əlverişli şərait yaradır. Bu görüşlər zamanı vətəndaşları narahat edən problemlər onların özləri tərəfindən səsləndirilir, sakinlər problemlərini aidiyyəti qurumlara birbaşa çatdırmaq imkanı qazanırlar.

Mayın 4-də Binəqədi Rayon İcra Hakimiyyətinin inzibati binasında “Açıq qapı” vətəndaş forumu çərçivəsində keçirilən tədbirdə RİH başçısı Xaləddin İsgəndərov sakinləri qəbul edib.

İcra hakimiyyətinin məsul əməkdaşlarının da iştirak etdiyi qəbul zamanı sakinlərin qaldırdıqları məsələlərlə əlaqədar RİH başçısı Xaləddin İsgəndərov tərəfindən aidiyyəti vəzifəli şəxslərə konkret tapşırıqlar verilib, vətəndaşlara qanunvericiliyin tələbləri izah edilib.

# Zirvə toplantısı keçirilib



Türkiyə Anadolu Aydınlar Ocağının başkanı, professor, doktor İbrahim Öztəkin dəvəti, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə həyata keçirilən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın “Xocalıya Ədalət!” Beynəlxalq Təbliğat-Təşviqat Kampaniyası çərçivəsində D.Çizməli, B.P.Çələbioğlunun “Cümhuriyyətin ilk sədası”, İftixar Piriyevin “Nurlu ömrün anları”, “Soyqırımı tarixinin dastanı” əsərləri ilə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsünə əsasən, Türkiyə Cümhuriyyətinin İğdır, Kars, Ərzurum, İnəgöl, Bursa, Manisa, İzmir, Kuşadası, Sakarya, Kocaeli, İstanbul, Amasya, Samsun, Girəsun, Trabzon şəhərlərini əhatə edən “Türkiyə-Azərbaycan Kültür və Sanatda Dev Kardeşlik ve Candaşlıq” layihəsi çərçivəsində Rəşid Behbudov adına Mahnı Teatrında Binəqədi rayon ictimaiyyətinin iştirakı ilə zirvə toplantısı keçirilib.

Tədbirdə Türkiyə Cümhuriyyətinin “Aydınlar Ocaqları” başkanları, professorlar, doktorlar və elm adamları iştirak ediblər.

№08 (146) BİNƏQƏDİ

# BÖYÜK ŞƏXSİYYƏT



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ərəfəsində Binəqədi rayonunun ictimai-siyasi və mədəni həyatında yaxından iştirak edən bir qrup şəxs ulu öndərlə bağlı fikirlərini bizimlə bölüşüb.**

## Ulu öndər ağsaqqallara böyük ehtiramla yanaşırdı

“Ümummilli lider həmişə ağsaqqal sözünə yüksək qiymət verir, onları cəmiyyətin ən şərəfli, fəxarətli üzvləri kimi qəbul edirdi. Heydər Əliyev yaşlı nəsli milli-mənəvi dəyərlərimizin qızıl fondu adlandırıb”. Bu fikirləri bizimlə söhbətində Binəqədi Rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev deyib. Ulu öndərlə bağlı xatirlərini bizimlə bölüşən Akif müəllim Azərbaycan xalqının ta qədimdən ağsaqqala, ağbirçəyə hörmətlə yanaşdığını, onlara yuxarı başda yer göstərildiyini bildirib: “Ağsaqallarımız həmişə cəmiyyətdə yüksək hörmət və söz sahibi olublar. Müdrik, uzaqgörən ağsaqqallarımız Azərbaycan dövlətçiliyinin çətin və böhranlı günlərində



həmişə xalqın ön sıralarında gedərək ən doğru yol göstəriblər. Ümumilli lider Heydər Əliyevin sayəsində ağsaqqalların ölkənin ictimai-siyasi həyatında fəal iştirakı təmin edilib. Hələ gənclik illərində mənə ulu öndərlə dəfələrlə görüşmək nəsib olub. Çox şanslı insanam ki, Heydər Əliyev kimi dahi şəxsiyyəti yaxından tanımışam. Müxtəlif rəhbər vəzifələrdə çalışdığım müddətdə həmişə onun qayğısını hiss etmişəm. Heydər Əliyevin təşəbbüsü ilə Daxili İşlər Nazirliyinin İstintaq İdarəsinə rəis təyin olunmuşam. Bu sahədə çalışan bir şəxs kimi deyə bilərəm ki, onun hüquq-mühafizə orqanlarına və kadrların seçilməsinə xüsusi diqqəti var idi. Heydər Əliyevin tövsiyələri mənim sonrakı həyatımda da böyük dönüş yaratdı”.

Akif müəllim vurğulayıb ki, respublikamızda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi məhz ümummilli liderin adı ilə bağlıdır: “Heydər Əliyev rəhbəri olduğu Azərbaycanın bütün məsulliyyətini öz çiyinlərində daşımış, onu bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarmış, müasir Azərbaycanın etibarlı bünövrəsini yaratmışdır. Bu gün biz qürurla deyirik ki, Azərbaycanı dünya dövlətləri arasında önə çıxaran, ölkəmizin müstəqilliyini təmin edən məhz Heydər Əliyev olub. Respublikamızın bugünkü uğurları, müstəqilliyimizin daha da möhkəmlənməsi Heydər Əliyev yolunun, ümummilli liderin azərbaycançılıq ideyasının davamıdır. Azərbaycanın bu gün əldə etdiyi uğurlar, beynəlxalq aləmdəki nüfuzu onun həyata keçirdiyi siyasət nəticəsində mümkün olmuşdur”. Hazırda bu ənənənin Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini deyən A.Rəfiyev qeyd edib ki, ölkə başçısı respublikamızın regionlarına, şəhər və qəsəbələrinə səfərləri zamanı mütəmadi olaraq ahıl vətəndaşlarla, ağsaqqal və ağbirçəklərlə görüşür, onların arzu və istəkləri ilə maraqlanır, təklifləri ilə əlaqədar yerli icra orqanlarına lazımi göstərişlər verir.

## Milli həmrəylik və birlik simvolu

“Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin yaradıcısı, qurucusu kimi, bütün mənalı həyatını xalqımızın xoşbəxt gələcəyinə sərf edi”. Binəqədi Rayon İcra hakimiyyəti yanında İctimai Şuranın sədri Aslan Mehdiyev bizimlə söhbətində bildirib ki, o, ulu öndərin qayğısını hələ gənclik illərindən hiss edib: “Qismət elə gətirib ki, mən ulu öndərlə ilk dəfə 27 yaşımda - 1974-cü ildə görüşmüşəm. O vaxtlar Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində olan Heydər Əliyev şəxsən məni qəbul etdi və onun təşəbbüsü ilə məsul vəzifəyə göndərildim. 1978-cu ildə ikinci görüşümüz oldu və 25 dəqiqə söhbət etdik. Üçüncü görüşümüz isə 1982-ci ildə baş tutub. Həmin il Heydər Əliyev Füzuli rayonuna gəlmişdi. Horadiz dəmiryol stansiyasında onu qarşıladıq. Zəhmətkeşlərlə görüşən ulu öndər bizimlə də geniş söhbət etdi. Bu görüşlər zamanı Heydər Əliyevin necə qayğıkeş, həssas, vətənpərvər insan olduğunu bir daha hiss etdim. Həmin hadisə həyatımda ən yaddaqalan qiymətli anlar idi”. Uzun illər ulu öndərin rəhbərliyi altında müxtəlif məsul vəzifələrdə çalışdığını söyləyən A.Mehdiyev bu müddət ərzində Heydər Əliyevin qayğısını daim hiss etdiyini də bildirib: “Müasir Azərbaycan cəmiyyətinin qurucusu Heydər Əliyevin fəaliyyəti qədirbilən xalqımız tərəfindən həmişə yüksək qiymətləndirilib. Əminliklə demək olar ki, hazırda Azərbaycanın mövcudluğu, inkişafı və tərəqqisi bu dövlətin Heydər Əliyev tərəfindən yaradılmış özülünün kifayət qədər möhkəmliyi ilə bağlıdır. Ulu öndər Azərbaycanın ən ağır dövrlərində ölkəni çox ciddi təhlükələrdən xilas edə bilib. O, müstəqil Azərbaycan dövlətini





qurub, müasir Azərbaycan cəmiyyətini formalaşdırıb, cəmiyyətimizin əsas dəyərlərini müəyyənləşdirib və həmin dəyərlər bu gün müasir dövlətimizin inkişafının əsas təməl prinsipləri kimi öz missiyasını yerinə yetirir. Heydər Əliyev ümummilli lider kimi insanlarımızın milli həmrəylik və birlik simvoluna çevrilib. Heydər Əliyev şəxsiyyəti, adı və ideyaları ətrafında birləşən Azərbaycan cəmiyyəti daha güclü, qüdrətli və əzəmətli görünür. Bütün bunların hamısı, təbii ki, Heydər Əliyevin Azərbaycan tarixində oynadığı müstəsna roldur, həyata keçirdiyi misilsiz xidmətlərdir”. A.Mehdiyev qeyd edib ki, Heydər Əliyev böyük istedad sahibi olan dövlət xadimi kimi mükəmməl idarəçilik qabiliyyəti və yüksək liderlik bacarığı ilə Azərbaycan tarixində silinməz iz qoyub: “XX əsrin sonlarında Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin misilsiz fəaliyyəti sayəsində mümkün olmuşdur. Öz xalqına sədaqətlə xidmət etmiş ulu öndərin ömür yolu hər bir azərbaycanlı üçün örnəkdir. Bu gün əminliklə demək olar ki, Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyev onun ideyalarını uğurla davam etdirir”.

## Azərbaycan gəncliyinin yaxın dostu

YAP Binəqədi rayon təşkilatının Aparat rəhbəri Sevinc Abdullayeva ulu öndər Heydər Əliyevlə bağlı xatirəsini bizimlə bölüşərkən bildirib ki, Azərbaycan gənclərinin müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olub. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir: “Elə siyasi liderlər var ki, onlar illərlə millətinə xidmət edirlər, amma heç vaxt ümummilli lider səviyyəsinə qalxa bilmirlər. Heydər Əliyev sözün əsl mənasında zamanın və məkanın föv-



qündə dayanan və Azərbaycanın ümummilli lideri səviyyəsinə yüksəlmiş bir şəxsiyyət olmuşdur”.

Ulu öndərlə bağlı xatirələrini danışan S.Abdullayeva bildirib ki, ulu öndərlə hər il dekabr ayında “Uşaqların Beynəlxalq Televiziya və Radio günü” görüşüb: “O görüşlərin hər biri mənim üçün unudulmaz bir tarixdir. İndi o günlərin, o illərin xatirələrinə boylanıram, təəssüratlarım yaddaşımda ən kövrək xatirəyə çevrilib. Həmin görüşlərdə biz öz arzu və istəklərimizi, düşüncələrimizi, hətta giley-güzarımızı da onunla bölüşürdük. Heydər Əliyevin qarşısında çıxış etmək, nitq söyləmək böyük məsuliyyət tələb edirdi. Amma bütün həyəcanlar sevimli Prezidentimizin zala daxil olması və öz sevgi dolu nəzərlərini bizə yönəltdiyi andaca yox olurdu. Onun gözlərindəki sonsuz sevgi və qayğını duyandan sonra özümüzü çox rahat hiss edirdik və bütün istedadımızı nümayiş etdirməyə çalışırdıq. Görüşlərin birində dahi rəhbərin dilindən “Hər il bir buğda boyu böyüyürsünüz və istedadınız ilbəil artır” sözlərini eşidəndə keçirdiyim hissləri ifadə etməkdə acizəm...

Çox şanslı uşaq olmuşam. ümummilli liderin qayğı və diqqətini öz üzərimdə hiss etmişəm. Çox şanslı gəncəm, çünki ilk addımlarımı məhz əsası Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası sıralarından başlamışam. Biz ümümmilli liderimizi heç vaxt aramızda yoxmuş kimi xatırlamamalıyıq, çünki belə insanların ölüm tarixləri olmur, doğum tarixləri olur ancaq! Sonda bir daha ümummilli liderin əziz xatirəsini yad edərək, sonsuz sevgi və ehtiramımı ifadə edirəm!”.

## Azərbaycan mədəniyyətinin və mənəviyyatının himayədarı

“Ulu öndər Heydər Əliyev xalqını böyük məhəbbətlə sevirdi. Mən hələ gənclik illərindən Heydər Əliyev fenomeninə çox bağlı idim. Onun hələ sovetlər dönəmində cəsarətli addımları, məntiqli, ziyalı təfəkkürü ilə çıxışları, dünyanı heyran edəcək natiqliyi həmişə diqqətimi çəkirdi”. Bu fikirləri İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, İftixar Piriyev səsləndirib. O qeyd edib ki, mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında böyük şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri var.

Ümummilli liderin milli-mənəvi dəyərlərimizə göstərdiyi qayğı müstəqil Azərbaycanın həyatında əsaslı yüksəlişə səbəb olub: “Heydər Əliyevin ölkənin inkişafı naminə atdığı addımlar, apardığı işlər diqqətəlayiqdir. Ulu öndərimiz xalqımızı dəfələrlə uçurumdan, çətin vəziyyətlərdən xilas edib”.

Azərbaycan mədəniyyətinə Heydər Əliyevin misilsiz töhfələr verdiyini deyən İ.Piriyev ulu öndərin sənət adamlarını daim diqqətdə saxldığını və onların qayğısına qaldığını bildirib: “Heydər Əliyev mədəniyyət işçilərini hətta gərəyindən də yüksək dəyərləndirib. Azərbaycanın sənət adamları dünyada təmsil olunmaq üçün öz bacarığını, istedadını müəyyən bir həddə qaldıra bilirdisə, Heydər Əliyev həmin insanları bundan da yüksək qiymətləndirib. Mən ulu öndərlə 2 dəfə görüşmüşəm. Tiflis teatrında bərpa rəhbəri işlədiyim dövrdə Heydər Əliyev Gürcüstana gəlmişdi. Bir müddət sonra onunla ikinci dəfə - Bakıda görüşdük. Həmin görüşdə Gürcüstanın keçmiş prezidenti Eduard Şevarnadze də iştirak edirdi. Zalda mən həm Azərbaycan, həm də gürcü dilində Şota Rustavelidən dostluğa dair bir neçə bənd söylədim. Mən ruhən, qəlbən Heydər Əliyevə çox bağlı idim. Bu bağlılıq sonradan onun haqqında poemalar yazmağıma səbəb olub. Yeri gəlmişkən deyim ki, Heydər Əliyevə həsr etdiyim “Müstəqil vətəninin memarı” poemasının işıq üzü görməsində Binəqədi Rayon İcra Hakimiyyətinin böyük dəstəyi olub. Bu poema 9 dilə tərcümə olunub. Rayon rəhbərliyinin təşəbbüsü ilə yazıçı-dramaturq Aqşin Babayevin “Xilaskar” əsərində ulu öndərin obrazını canlandırmaq mənə qismət oldu. Buna görə özümü xoşbəxt aktyorlardan hesab edirəm. Heydər Əliyevə həsr olunmuş “Qurtuluş” dastanı isə Akademik Milli Dram Taetrının səhnəsində oynanılıb. Bu əsər də “Qızıl fond”da saxlanılır. Ulu öndərlə bağlı bir neçə kiçik tamaşalar da hazırlamışam. “Nurlu ömrün anları” məhz bu silsilədəndir. Heydər Əliyev barəsində saatlarla, aylarla, illərlə danışmaq olar. Heydər Əliyev Azərbaycan mədəniyyətinə misilsiz töhfələr verib”.



## Ulu öndər uşaqları sonsuz məhəbbətlə sevirdi

Binəqədi rayonunda fəaliyyət göstərən 158 saylı uşaq bağçasının müdiri Rəfiyyə Əsədova bildirib ki, ümummilli lider Heydər Əliyev tərəfindən ölkəmizdə dövlət uşaq siyasətinin əsası qoyulub: “Cəmiyyətin gələcək inkişafının əsasını uşaqlar təşkil edir. Daim qayğıya, şəfqətə ehtiyac duyan uşaqların hüquqlarının qorunması, onların layiqli vətəndaş kimi formalaşdırılması hər bir dövlətin başlıca sosial məsuliyyətlərindəndir. Ölkəmizdə uşaqlara qayğının dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider hələ ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərliyi dövründə uşaqlara xüsusi diqqət yetirmiş, həmin vaxt səhiyyə, mədəniyyət, təhsil ocaqlarının, məktəbdənkənar müəssisələrin şəbəkəsinin genişləndirilməsi uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz təsirini göstərmişdir. “Mən həyatımın, bu günümün, gələcəyimin xoşbəxtliyini məhz uşaqlara qayğıda, diqqətdə görürəm”, – deyən dahi şəxsiyyətin rəhbərliyi ilə müstəqillik illərində ölkəmizdə dövlət uşaq siyasəti yeni forma və məzmun qazanmış, bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır”. Ulu öndərin müəyyənləşdirdiyi dövlət uşaq siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilildiyini deyən R.Əsədova son 10 ilə yaxın bir dövrdə ölkəmizdə uşaq problemlərinin həllinə yönəlmiş çoxsaylı Dövlət proqramlarının qəbul edildiyini, vahid dövlət uşaq siyasətinin formalaşması istiqamətində uğurlu addımların atıldığını diqqətə çatdırıb: “Ulu öndər öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bəli, Azərbaycanda uşaq siyasətinin əsası ümumilli lider Heydər Əliyev tərəfindən qoyulub. Müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndər uşaqları sonsuz məhəbbətlə sevirdi və onlara böyük qayğı və diqqət göstərirdi. Azərbaycan körpələrinin sağlamlığı, onların yaxşı təhsil və təlim-tərbiyə alması, Vətən və xalq üçün gərəkli övlad kimi böyüməsi ümummilli liderin daim diqqətində olmuşdur”. Rəfiyyə xanım bildirib ki, bu gün Binəqədi rayonunda 32 körpələr



evi-uşaq bağçası fəaliyyət göstərir. Bu müəssisələr əsaslə şəkildə təmir olunaraq uşaqların ixtiyarına verilib: “Rəhbərlik etdiyim bağçada Heydər Əliyevə həsr olunmuş xüsusi guşə yaradılıb. Müəssisəmizdə uşaqlara yüksək diqqət və qayğı ilə yanaşılır, onlar vətənpərvərlik ruhunda tərbiyə olunurlar. Çalışacağıq ki, bundan sonrakı fəaliyyətimizdə də ulu öndərin ideyalarını doğruldaq”.

# Müşavirə keçirilib



Mayın 2-də Binəqədi Rayon İcra Hakimiyyətində RİH başçısının sədrliyi ilə müşavirə keçirilib. Tədbirdə icra hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri, hüquq-mühafizə orqanlarının və rayon Gənclər və İdman İdarəsinin rəhbərliyi iştirak ediblər.

Xaləddin İsgəndərov müşavirəni açaraq giriş nitqi ilə çıxış edib.

Sonra RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov 2016-cı ilin birinci rübü ərzində Aparata və Sakinlərin Müraciət Xidmətinə daxil olmuş müraciətlər, onlara baxılması vəziyyəti barədə məlumat verib. O, həmçinin, may ayının birinci ongünlüyündə rayon icra hakimiyyəti tərəfindən həyata keçirilməsi planlaşdırılan tədbirlər haqqında danışıb.

Müşavirədə yekun nitqi ilə çıxış edən RİH başçısı aidiyyəti üzrə tapşırıqlar verib.

# Türkiyə nümayəndə heyəti Binəqədi rayonunda olub

Türkiyə Anadolu Aydınlar Ocağının başkanı, professor-doktor İbrahim Öztəkin dəvəti, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə həyata keçirilən, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat-Təşviqat Kampaniyası çərçivəsində təşkil edilən "Türkiyə-Azərbaycan Kültür və Sanatda Dev Kardeşlik ve Candaşlıq" layihəsində iştirak edən nümayəndə heyəti Binəqədi rayonunda olublar.

Nümayəndə heyətini Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov qəbul edib. Görüşdə İrəvan Dövlət Azərbaycan Dram Teatrının Türkiyə Cümhuriyyətinə olan səfəri barədə qonaqlar öz təəssüratlarını bölüşüb, qardaş dövlətin vətəndaşları tərəfindən mehriban və qonaqpərvərliklə qarşılandıqlarını qeyd ediblər.



Sonra Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərova, layihəyə göstərdiyi dəstəyə görə, "Türkiyə-Azərbaycan Kültür və Sanatda Dev Kardeşlik ve Candaşlıq" ödülü təqdim olunub. Sonda icra hakimiyyəti tərəfindən qonaqlara hədiyyələr verilib və xatirə şəkilləri çəkdirilib.

# "Vətən bizi səsləyir – yolumuz Qarabağa"!

Mayın 6-da Şuşanın işğalı və 9 May Qələbə Günü ilə bağlı Binəqədi rayonunda 9 məktəbəqədər təhsil müəssisəsində "Vətən bizi səsləyir – yolumuz Qarabağa"! adı altında vətənpərvərlik tədbiri keçirilib. Tədbirdə Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Fəxridə Abbasova, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdiri Elman Dadaşov, rayon üzrə məktəbəqədər təhsil müəssisələrinin kuratoru və 158 saylı bağçanın müdiri Rəfiyyə Əsədova, həmçinin 9 məktəbəqədər təhsil müəssisəsinin (158, 138, 210, 211, 298, 272, 266 , 177 , 151) kollektivləri iştirak ediblər.



Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Vətən, torpaq uğrunda şəhid olan igidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra çıxış edənlər tədbirin əhəmiyyətini vurğulayaraq, uşaqların kiçik yaşlardan vətənpərvərlik ruhunda tərbiyə edilməsinin vacibliyini diqqətə çatdırıblar. Bildirilib ki, Prezident İlham Əliyev ordu sahəsində uğurlu siyasət aparır və tezliklə işğal altında olan torpaqlarımız azad ediləcək, üçrəngli bayrağımız Qarabağda dalğalanacaq.

Çıxışlardan sonra 158 saylı bağça "Ana, mən əsgər gedirəm", 177 saylı bağça "Yaşa, Azərbaycan", 211 saylı bağça "Vətən", 298 saylı bağça "Vətənim Qarabağ", 266 saylı bağça "Çırpınırdı Qara dəniz", 151 saylı bağça "Sarı gəlin – gözlə məni, gələcəyəm"!, 210 saylı bağça Vətən marşı, 272 saylı bağça "İgidlərim" və 138 saylı bağça "Unutma - mən Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan və Qarabağam" adlı bədii kompozisiyaları nümayiş olunub.

Tədbirin sonunda Azərbaycan Respublikasının bayrağı səhnəyə gətirilərək bayraq flaşmöbü nümayiş etdirilib. 158 saylı bağçanın balaca sakini isə "Qarabağ" şikəstəsini ifa edib.

# Müharibə veteranları ziyarət olunub



Binəqədi Rayon İcra Hakimiyyətinin, YAP Binəqədi rayon təşkilatı, Binəqədi Rayon Gənclər və İdman İdarəsi və Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq Mühafizə Orqanları Veteranları Şurası rayon şöbəsinin təşkilatçılığı ilə rayonun fəal gəncləri və "ASAN Könüllüləri" İkinci Dünya müharibəsinin veteranlarının evlərində olublar.

Gənclər veteranları Qələbə Günü münasibətilə təbrik edərək onlara cəmiyyətin əziz, hörmətli insanları olduqlarını deyiblər, gül dəstələri təqdim ediblər.

Veteranlar - Elmar Paşayev, Əmirbala Məmmədov, Həbibulla İsmayılov və Əmirəli Əmirəliyev onlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# BÖYÜK ŞƏXSİYYƏT

## Azərbaycan səhiyyəsinin qurucusu

"Həm sovetlər hakimiyyəti, həm də müstəqillik dövründə ulu öndər Heydər Əliyev yalnız Azərbaycan xalqının tərəqqisi və inkişafına xidmət edib". Bu fikirlərin müəllifi 25 saylı şəhər poliklinikasının baş həkimi Xatirə Xəlilovadır: "Digər sahələrdə olduğu kimi, səhiyyənin inkişafı da ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyevin hələ 1960-cı illərin sonu - 1970-ci illərin əvvəllərində hakimiyyətdə olduğu dövrdə Azərbaycanda səhiyyə sahəsində ciddi dönüş baş verib. Ulu öndərin səhiyyə quruculuğu ilə əlaqədar qarşıya qoyduğu tədbirlər kompleksinə köhnə səhiyyə ocaqlarının yenidən qurulması, yenilərinin tikintisi və ən müasir avadanlıqlarla təchiz edilməsi, həkimlərin peşəkarlığının artırılması daxil olub. İkinci dəfə müstəqillik əldə edən ölkəmizə yenidən rəhbər seçilən Heydər Əliyev tərəfindən Azərbaycanda əhalinin sağlamlığının qorunması üçün səhiyyə sahəsində yeni qanunvericilik bazası hazırlandı. Nəticə etibarilə tək paytaxtda deyil, bölgələrdə də bu istiqamətdə geniş tədbirlər həyata keçirildi. Bu gün Bakı ilə yanaşı, bölgələrdə də yeni və ən müasir standartlara cavab verən tibb ocaqları fəaliyyət göstərir. Artıq bir çox xəstəliklərin müayinəsi və müalicəsi üçün vətəndaşların paytaxta üz tutmalarına ehtiyac qalmayıb".



Ulu öndərin siyasi kursunun ölkə başçısı İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirildiyini deyən baş həkim, Ölkə Prezidentinin səhiyyə sahəsində müəyyən etdiyi proqramların layiqincə icra edildiyini də diqqətə çatdırıb: "Bir sıra dövlət proqramlarının reallaşdırılmasında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Fond diabetli, talassemiyalı xəstələrə qayğısında və onların müalicəsinin təşkilində, qanvermə aksiyalarının keçirilməsində, ana və uşaqların sağlamlığının qorunması işinin yaxşılaşdırılmasında bir çox böyük layihələrə imza atmışdır.

Azərbaycan səhiyyəsinin bugünkü inkişafı təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə də müsbət qarşılanır və ölkəmizin iqtisadi qüdrətinin və sosial-siyasi nüfuzunun göstəricisi kimi qəbul edilir. Təsadüfi deyil ki, 2013-cü ilin may ayında Ümumdünya Səhiyyə Təşkilatının İcraiyyə Komitəsinin sessiyasında Azərbaycan bu qurumun birinci vitse-prezidenti kürsüsündə təmsil olunub. Bu, Azərbaycan dövlətinin əhalinin sağlamlığına göstərdiyi qayğının beynəlxalq aləmdə tanınması deməkdir. Bunun timsalını Binəqədi rayonunda da görmək olar. Hazırda rayonda fəaliyyət göstərən bütün tibb müəssisələri əsaslı şəkildə təmir olunub və müasir avadanlıqlarla təchiz edilib. Fevral ayından başlanmış əhalinin müayinəsi bu gün də uğurla davam etdirilir. Təbi ki, bütün bunlar dövlətimizin səhiyyə sahəsinə göstərdiyi qayğının nəticəsidir".

# Təhsilimizin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır



Binəqədi rayonu 276 saylı tam orta məktəbin direktoru, əməkdar müəllim Bəhram Şiriyev bizimlə söhbətində bildirib ki, ulu öndərimiz təhsilə, gənclərin tərbiyəsinə ən mühüm sahə kimi baxıb: "Görkəmli dövlət xadimi Heydər Əliyev ölkənin və xalqın taleyində, hərtərəfli inkişafında, dünyaya inteqrasiyasında təhsilin xüsusi rolu olduğunu hər zaman vurğulayırdı. Dahi rəhbər deyirdi: "Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, hər şeydən çox mütləq təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır". Ulu öndər təhsilə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı kimi baxmırdı. O, hesab edirdi ki, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsil əvəzsiz rola malikdir". Şagird və tələbələrin müasir tələblər səviyyəsində formalaşması üçün təlimin keyfiyyəti, yüksək savad, dərin bilik verilməsinin yeganə şərt olmadığını deyən Bəhram Şiriyev ulu öndərin bu məsələyə də xüsusi diqqət yetirdiyini bildirib: "Heydər Əliyev təlimində təhsillə tərbiyənin, mükəmməl biliklə yüksək mənəviyyatın vəhdəti son dərəcə mühüm prinsip kimi əsaslandırılıb. Görkəmli şəxsiyyətin milli təhsil və tərbiyə məsələlərinə dair nəzəri konsepsiyası öz mükəmməlliyi ilə çağdaş dövrdə, həmçinin gələcək yüzillərdə də öz dəyərini, əhəmiyyətini saxlamaq gücünə malikdir. Bu konsepsiya hər bir təhsil alanın, hər bir pedaqoqun, ümumiyyətlə, hər bir Azərbaycan vətəndaşının fəaliyyət devizi, həyat amalı kimi dəyərləndirilə bilər. Dahi rəhbər təlim-tərbiyə məsələləri ilə əlaqədar zəngin nəzəri irsə malik olduğu kimi, uzun illər təhsilimizin inkişafına hərtərəfli diqqət və qayğı göstərərək bu sahənin tərəqqisinə nail olub".

Məktəb direktorunun sözlərinə görə, Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurulması, əsl inkişafa qovuşması da məhz Heydər Əliyev dühası sayəsində gerçəkləşib: "Ölkəmiz müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində ciddi uğurlar əldə olunub. Bu uğurların ilhamverici qüvvəsi isə məhz Heydər Əliyevdir. Onun müdrik daxili və xarici siyasəti, yaratdığı sabitlik təhsilin inkişafına əlverişli zəmin yaradıb. Əminik ki, müasir Azərbaycan təhsili öz zəngin ənənələrinə sadiq qalacaq, milli-mənəvi dəyərlərə əsaslanaraq təhsil islahatlarının memarı və qurucusu Heydər Əliyevin müdrik tövsiyələrini əzmlə həyata keçirəcək".

# «Heydər Əliyevin ruhu qarşısında borcluyam»

Binəqədi Bələdiyyəsi, yerli büdcə məsələləri üzrə daimi komissiyasının sədr müavini Aysel Əlizadə ulu öndər Heydər Əliyevlə bağlı fikirlərini bizimlə bölüşərkən bildirib ki, Heydər Əliyev Azərbaycanı dünya miqyasında tanınmasında da misilsiz işlər görüb: «Heydər Əliyevin xalq üçün, Vətən naminə, milli-mənəvi dəyərləri qorumaq və zənginləşdirmək üçün etdiklərini saya hesaba gətirmək mümkünsüzdür.



YAP-ı n gənc üzvü kimi, məsuliyyətimi dərindən dərk edərək ümummilli liderimiz Heydər Əliyevin ruhu qarşısında borcluyam. Fəxr edirəm ki, ulu öndərin yaratdığı, qurduğu, təşkilatlandırdığı partiyanın üzvüyəm. Bütün Azərbaycan gəncləri kimi, mənim üçün də söz demək, fikir söyləmək imkanı yaranıb, siyasi proseslərdə iştirak üçün geniş perspektivlər açılıb. Sözsüz ki, bütün bunlar ümummilli liderimizin gəncliyə göstərdiyi qayğının nəticəsidir. Heydər Əliyevin layiqli varisi Azərbaycan Prezidenti İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Sevinirik ki, firəvan bir ölkədə yaşayırıq».

# Bütün dünyada böyük nüfuza sahib görkəmli dövlət xadimi

Binəqədili fəal gənc Nərgiz Qurbani ulu öndərin dahi şəxsiyyət olduğunu deyərək, qeyd edib: "Heydər Əliyev bütün dünyada layiqli hörmətə və böyük nüfuza sahib görkəmli dövlət xadimi idi. O böyüklərə və uşaqlara xüsusi münasibət göstərir, onları diqqətlə dinləyir və fikirlərini bölüşürdü.



Heydər Əliyevin həyatı və fəaliyyəti, əlçatmaz xəyalların, arzuların reallaşmasını insan fenomeni gücünə mümkünlüyünü isbat etdi. 80 il sürən bu şərəfli ömür yolu, bir daha göstərdi ki, böyük və nadir insanlar doğulduqları andan ömrünün sonuna qədər yüksək və ali missiyanın daşıyıcıları olurlar.

Heydər Əliyev Azərbaycanda bütün sahələrin inkişafına xüsusi önəm verirdi. Ulu öndər Heydər Əliyev tərəfindən aparılmış uğurlu, cəsarətli olan Azərbaycan neft strategiyasının icrası nəticəsində bu gün Azərbaycan dünyada dinamik şəkildə inkişaf edən ölkədir.

Heydər Əliyevin əsasını qoyduğu Azərbaycan gənclər siyasəti, gənclərə istiqamətləndirdiyi fikirlər, arzular bugün artıq reallaşmaqdadır. Bu gün Azərbaycan da müstəqilliyimizlə həmyaşıd olan bir nəsil formalaşır ki, onlar öz azad fikirlərini nəinki ölkə daxilində, eyni zamanda ölkə xaricində diqqətə çatdırır və üçrəngli bayrağımızı qürurla dalğalandırırlar.

Fikrimi Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə bitirmək istəyirəm: "Mən çox xoşbəxtəm, çox sevinirəm ona görə ki, bütün gördüklərinizi əsasını qoyanlardan biriyəm. Bunun təməlini qoyanlardan biriyəm, bunun təşəbbüskarıyam. Bu işlərin görülməsində vaxtı ilə illərlə zəhmət çəkmişəm, illərlə fəaliyyət göstərmişəm, illərlə bunların reallığa çevrilməsi üçün çox çətin yollardan keçmişəm. Xalqımız üçün, millətimiz üçün! Mən bunları görməkdən, buraları seyr etməkdən həddindən artıq özümü xoşbəxt hiss edirəm."

# Partiyaya üzv olmaq istəyən şəxslərlə görüş



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında qurumun sədri Ramiz Göyüşovun YAP sıralarına üzv qəbul olunmaq istəyən şəxslərlə görüşü keçirilib. Görüşdə rayon təşkilatının əməkdaşları, partiyaya üzv olmaq üçün müraciət etmiş şəxslər və müvafiq ərazi ilk partiya təşkilatlarının rəhbərləri iştirak ediblər.

Tədbirdə çıxış edən R.Göyüşov ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi, siyasi, mədəni və s. sahələri əhatə edən uğurlu islahatlardan danışıb. Bu islahatların nəticəsində Azərbaycanın hərtərəfli inkişaf etdiyini və əhalinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldığını bildirən rayon təşkilatının sədri dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin bariz nümunəsi kimi ölkəmizin bütün dünyada böyük nüfuz və söz sahibi olduğunu diqqətə çatdırıb. Bu uğurların nəticəsi olaraq, xalqımızın gələcəyə daha da nikbin baxdığını və ölkə başçısının ətrafında sıx birləşdiyini deyən sədr YAP sıralarının günü-gündən genişlənməsinin bu baxımdan təsadüfi olmadığını və xalqımızın Prezident İlham Əliyevə olan inam və etimadının daha da artdığını bildirib. O, ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişindən, YAP-ın yaradılması tarixindən, bugünkü fəaliyyətindən və strukturundan da söhbət açıb. R.Göyüşov, həmçinin, cari ilin aprel ayının 26, 27 və 28-i tarixlərində Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyasının VII Qlobal Bakı Forumuna toxunaraq bu tədbirin ölkəmizdə keçirilməsinin böyük əhəmiyyət daşıdığını deyib, bunu yüksək tarixi hadisə adlandıraraq dövlət başçısının uğurlu tarixi siyasətinin nəticəsi kimi dəyərləndirib, eyni zamanda Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağ münaqişəsinin bütün təfərrüatlarının, torpaqlarımızın işğal faktının dünyaya bəyan edilməsi istiqamətində mühüm hadisə olduğunu vurğulayıb.

Daha sonra rayon təşkilatının sədri YAP sıralarına üzv olmaq üçün müraciət etmiş şəxslərlə ayrı-ayrılıqda söhbət edib, fikir mübadiləsi aparıb. YAP-da təmsil olunmaq istəyən şəxslər bu qərarı öz təşəbbüsləri verdiklərini və bundan böyük qürur hissi duyduqlarını deyiblər.

# YAP-n 700 min birinci üzvü binəqədili tələbədir



Mayın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatında partiyanın 700 min birinci üzvünə üzvlük vəsiqəsi təqdim edilib. Bununla bağlı təşkil olunmuş tədbirdə çıxış edən rayon təşkilatının sədri Ramiz Göyüşov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün ölkə Prezidenti, YAP-ın sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən gənclər siyasətindən bəhs edib. Bildirib ki, ölkəmizdə həyata keçirilən məqsədyönül siyasət nəticəsində gənclərimizə hər cür şərait yaradılır, onların yüksək təhsil alması, ictimai-siyasi fəallıqlarının artması, eləcə də ideyalarının reallaşması üçün böyük diqqət və qayğı göstərilir. Gənclər siyasətinin tərkib hissəsi olaraq gənc kadrlar müxtəlif qurumlarda layiqincə təmsil olunurlar. Məhz bunun nəticəsidir ki, Azərbaycan gəncliyi dövlət başçısının ətrafında sıx birləşib. Bunun bariz nümunəsi kimi YAP sıralarına qoşulan gənclərin sayı durmadan artır və bunlar arasında intellektual gənclik üstünlük təşkil edir.

Sədr daha sonra YAP sıralarına üzv olan 700 min birinci üzvə partiya vəsiqəsinin təqdim edilməsini əlamətdar hadisə adlandırıb, bunun ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ərəfəsində baş verməsinin sevindirici olduğunu diqqətə çatdırıb.

YAP-ın 700 min birinci üzvü Oqtay Hüseynzadə 1998-ci il aprelin 8-də anadan olub, orta təhsilini Bağça-Məktəb Lisey Kompleksinin 43 saylı liseyində alıb. Hazırda Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər fakültəsinin birinci kurs tələbəsidir. Tədbirdə çıxış edən O.Hüseynzadə YAP sıralarında təmsil olunduğu üçün qürur hissi keçirdiyini və ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı dəstəklədiyini vurğulayıb.

# Ölkəmizin sosial-iqtisadi tərəqqisində bələdiyyələrin rolu artır

Binəqədi qəsəbəsində yerləşən Mərkəzi Mədəniyyət Evində Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının növbəti ümumi yığıncağı keçirilib. Tədbirdə Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin Bələdiyyələrlə iş sektorunun müdiri Emin Eyvazov, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin sədri Mehdi Səlimzadə, Milli Məclisin deputatı Kamran Bayramov, şəhər və kənd bələdiyyələrinin milli assosiasiyalarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.




Tədbiri giriş sözü ilə açan Milli Assosiasiyanın sədri Hümbət Hüseynov yığıncağın gündəliyinə Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyalarının və nəzarət-təftiş komissiyasının hesabatları, 2016-cı il üçün büdcəsi və təşkilati məsələlər daxildir. Hesabat məruzəsi ilə çıxış edən Hümbət Hüseynov bildirib ki, ötən il ölkəmizdə mühüm inkişaf prosesləri, əhalinin gündən-günə maddi rifahının yüksəlməsi müşahidə olunub. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasət nəticəsində respublikamız qüdrətlənir, beynəlxalq aləmdə nüfuzu daha da artır. Azərbaycanda sosial-iqtisadi və siyasi islahatların bir-birini tamamlaması uğurların davamlılığını təmin edir. Bu dövrdə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bələdiyyələr də daim inkişafda olub. Bələdiyyələrin Azərbaycanın sürətli sosial-iqtisadi tərəqqisində rolunun artmasına nail olunub, onlar yerlərdə konkret işlərin görülməsinə çalışıblar. Ötən dövrdə yerli özünüidarəetmə institutunun formalaşması üçün ardıcıl tədbirlər görülüb, bu sahədə qanunvericilik bazası təkmilləşdirilib, onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən lazımi şərait yaradılıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının Qəsəbə Bələdiyyələrinin Assosiasiyası və respublikanın 141 qəsəbə bələdiyyəsi tərəfindən 2006-cı ildən təsis edilmiş Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyası hesabat ilində yerli özünüidarəetmənin inkişafı və möhkəmləndirilməsi istiqamətində zəruri tədbirləri davam etdirib. Bələdiyyə sədrlərinin III Ümumrespublika toplantısında qarşıya qoyulan vəzifələrdən irəli gələrək, hesabat ilində yerli özünüidarəetmə qurumlarının demokratik dəyərlərə və beynəlxalq standartlara cavab verən hüquqi bazası daha da möhkəmlənib, “Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında” Qanun qəbul olunub, “Bələdiyyə qulluğu haqqında” Qanuna dəyişikliklər, bununla bağlı müvafiq qaydalar təsdiq edilib. Bildirilib ki, qəsəbə bələdiyyələri ötən dövrdə yerli əhəmiyyətli infrastruktur layihələrini uğurla icra edib. Milli Assosiasiyaların “Bir bələdiyyə - azı bir layihə” təşəbbüsü çərçivəsində 2015-ci il ərzində qəsəbə bələdiyyələri 19 istiqamətdə 675 müxtəlif xarakterli sosial layihə icra edib. Cari ildə isə 620 layihənin icrası nəzərdə tutulur ki, bu da 2015-ci illə müqayisədə 4.208.678 manat və ya 56,7 faizdən artıq sosial sifarişlərin icrası deməkdir. Bütün bunlar göstərir ki, ərazilərin sosial-iqtisadi inkişafında davamlı olaraq bələdiyyələrin də payı var. Ötən il demokratik ənənələrin inkişafı istiqamətində “Multikultural cəmiyyətdə həyat: hörmət, dialoq, qarşılıqlı fəaliyyət” şüarı altında qəsəbə bələdiyyələrində “Yerli demokratiya həftəsi” çərçivəsində 668 görüş keçirilib. Görüşlərdə 61.385 nəfər iştirak edib, bələdiyyələrdə 6506 nəfərin fərdi qəbulları aparılıb. Yerli vergi və ödənişlərin yığılması ilə bağlı qanunvericilikdə müəyyənləşdirilmiş yeni qaydaların hesabat dövründə tətbiqi bələdiyyələr tərəfindən uğurla həyata keçirilib. Nəticədə 2015-ci ildə bələdiyyə büdcələrinin yerli vergi və ödənişlər hesabına formalaşması əvvəlki illə müqayisədə 27 faizdən 37,6 faizədək artıb.

Prezident Administrasiyasının nümayəndəsi Emin Eyvazov dövlətin bələdiyyələrə dəstəyindən, ötən dövr ərzində yerli özünüidarəetmənin inkişafından, qazanılan nailiyyətlərdən, Milli Assosiasiyalar vasitəsilə həyata keçirilən çoxsaylı layihələrdən danışıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmiz qüdrətli dövlətə çevrilib, sürətli sosial-iqtisadi inkişaf yolu keçib, genişmiqyaslı infrastruktur layihələrinin icrası istiqamətində tarixi nailiyyətlər əldə edib. Bütün dünyanı bürümüş qlobal iqtisadi böhran fonunda ölkə rəhbərliyi köklü iqtisadi islahatlara start verib. Sahibkarlığın inkişafı, daha münbit investisiya mühitinin yaradılması üçün təsirli tədbirlər görülüb. E.Eyvazov əlavə edib ki, ümumilikdə bələdiyyələr ölkəmizin inkişafında əhəmiyyətli rol oynayıb, əhalini narahat edən sosial əhəmiyyətli məsələləri həll etməyə, vətəndaşları yerli özünüidarəetmə proseslərə cəlb etməyə çalışıblar. Bu



işə Milli Assosiasiyaların da töhfələri var. Bildirilib ki, ötən illə müqayisədə layihələrin sayı və layihələrə sərf edilmiş vəsaitin həcmi azalıb: “Təbii ki, bu, narahatlıq doğurmaya bilməz. Bələdiyyələr bu məsələlərdə irəliləyişlərin əldə olunması üçün yerli büdcəyə daxilolmaların artmasını təmin etməlidirlər ki, layihələrin sayı çoxalsın, vətəndaşların sosial sifarişləri tam təmin olunsun, bələdiyyələrin fəaliyyətinin səmərəliliyi artsın”.

Mehdi Səlimzadə və Kamran Bayramov çıxışlarında bələdiyyələrin ötən dövr ərzindəki fəaliyyətini qənaətbəxş hesab ediblər. Onlar qanunvericilikdə edilən dəyişikliklərin dəyişikliklərin yerli özünüidarə orqanlarının inkişafına müsbət təsirindən, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərdən danışıblar. Azərbaycan bələdiyyə sisteminin effektivliyinin və bələdiyyələrin fəallığının artırılması istiqamətdə görüləcək işlərin əhəmiyyəti vurğulanıb, qəsəbə bələdiyyələrinin sədrlərinə müvafiq tövsiyələr verilib.

Tədbirdə qəsəbə bələdiyyələrinin sədrləri gördükləri işlər barədə məlumat veriblər. Eyni zamanda, yerli əhəmiyyətli məsələlərin həllində əhalinin iştirakı, bələdiyyələrin maliyyə imkanlarının artırılması, bələdiyyə-vətəndaş əlaqələrinin möhkəmləndirilməsində bələdiyyə qulluqçularının peşəkarlığı, bələdiyyələrin fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması ilə bağlı çıxışlar olub, yerli vergi və ödənişlərin yığılmasında mövcud çətinliklərin aradan qaldırılması yollarına dair təkliflər səsləndirilib.

Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva çıxışında bildirib ki, ötən müddətdə rayon bələdiyyələri öz işlərini günün tələbləri səviyyəsində qurmağa çalışıblar. Bələdiyyələr abadlaşdırma və quruculuq işlərində fəal iştirak ediblər. Sakinlərlə münasibətlərini daha da yaxşılaşdıran qurumların ictimai əlaqələri də güclənib. Dövlət tərəfindən bələdiyyələrə göstərilən diqqət və hərtərəfli dəstək onların işini daha da sürətləndirib. Yerli sosial-iqtisadi məsələlərin həlli imkanları xeyli dərəcədə artıb. Rayon bələdiyyələri bayramlar, əlamətdar günlərdə imkansızları, əlilləri, şəhid ailələrini yaddan çıxarmayıblar, işlərini daha səmərəli təşkil etmək məqsədilə yerlərdə sakinlərlə səyyar görüşlər təşkil edib, məhəllə komitələri yaradıblar. Bələdiyyələrdə şəffaflığın təmin edilməsi məqsədilə sosial şəbəkələrdə səhifələr yaradılıb. Bələdiyyələr seçkili orqan olaraq ildə iki dəfə öz seçiciləri qarşısında hesabat verir, sakinləri görülən işlər barədə məlumatlandırır, gələcək fəaliyyət planlarını açıqlayırlar. Daim öndə olan Binəqədi bələdiyyələri ilk dəfə olaraq ötən ilin iyul ayında KİV nümayəndələri ilə görüşərək hesabat veriblər. Qeyd olunub ki, hesabat ilində rayonda “Yerli demokratiya həftəsi”, “Aşıq qapı günü” keçirilib, həmçinin “bələdiyyə-vətəndaş, vətəndaş-bələdiyyə” münasibətlərinin inkişaf etdirilməsi məqsədilə tədbirlər təşkil olunub. Bundan əlavə, bələdiyyə gəlirləri və yerli vergilər şöbəsinin əməkdaşları üçün “Ünsiyyət qurmaq bacarıqları” mövzusunda təlim də keçirilib. Bələdiyyə sədri vurğulayıb ki, il boyu rayon bələdiyyələri sosial layihələrdə də yaxından iştirak edib və bu istiqamətdə səmərəli fəaliyyət göstəriblər. Ötən müddətdə rayon bələdiyyələri torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş qəhrəman oğullarımızın xatirəsini daim uca tutub, onların ailələrinə diqqət göstəriblər. Rayon ərazisində şəhidlərin abidəsi, onların xatirəsinə yaradılan parklar diqqətdə saxlanılıb. Bildirilib ki, Binəqədi rayon bələdiyyələri inkişaf etmiş ölkələrin təcrübəsindən də yararlanır. Litvanın yerli özünüidarəetmə orqanlarını təmsil edən nümayəndə heyəti Binəqədi rayonunda olub, onlarla qarşılıqlı fikir mübadiləsi aparılıb, təcrübələrin bölüşdürülməsi, həmçinin qardaş bələdiyyə formatında əməkdaşlığın perspektivləri müzakirə edilib.

Yığıncaqda, həmçinin, nəzarət-təftiş komissiyasının hesabatı dinlənilib, cari ilin büdcəsi təsdiq edilib və təşkilati məsələlərə baxılıb. Tədbirin sonunda Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının illik hesabatı haqqında ümumi yığıncağın qərarı oxunaraq qəbul edilib.

# Vətənpərvərlik mövzusunda tədbir

Mayın 3-də Binəqədi rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 saylı filialında “Torpaq uğrunda ölən varsa, vətəndir” adlı tədbir keçirilib. Tədbirdə filialın müdiri Almaz Ələkbərova, Milli Qəhrəman Famil İsgəndərovun bacısı Elmira İsgəndərova, “Milli qəhrəmanları tanıtma” İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri Füzuli Həsənov, “Əfqanıstan veteranları” İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri Mahəddin Rüstəmov, “Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri” İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri İlham Qayıbzadə, Milli Qəhrəman Zabit Quliyev, 100 saylı tam orta məktəbin hərbi hazırlıq müəllimi Cəlal Cəlilov, valideynlər, şagirdlər və oxucular iştirak ediblər.

Qonaqlar əvvəlcə kitabxanada Vətən uğrunda şəhid olan igidlərimizlə bağlı hazırlanmış stendlə tanış olublar. Dövlət himni səsləndirildikdən sonra son günlər cəbhənin təmas xəttində baş vermiş hadisə zamanı şəhid olmuş hərbçilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bildirilib ki, respublikamızda digər sahələrlə yanaşı, ordu quruculuğu da yüksək templə inkişaf edir. Azərbaycan ordusu ən müasir tələblərə cavab verən hərbi quruma çevrilib. Qeyd olunub ki, Qarabağ savaşında canını fəda edən igid oğullar arasında Binəqədi sakinləri də var. Cəbhə bölgəsində gedən son döyüşlərdə də rayonun qəhrəman oğulları Vətəni darda qoymayıb. Emin Bağırov, Cabbarxan Hacıağayev, Mahir Mirzəyev, Fəxrəddin Qurbanlı məhz belə igidlərimizdəndir.



Milli Qəhrəman Famil İsgəndərovun bacısı çıxışında qardaşının keçdiyi döyüş yolundan danışıb. Bildirib ki, bu cür tədbirlərin gənc nəslin vətənpərvər ruhda böyüməsində xüsusi əhəmiyyəti var.

Digər çıxış edənlər torpaqlarımızın 20 faizini işğal etmiş ermənilərin məkrli hərəkətlərindən danışıblar. Bildirilib ki, yaranmış vəziyyətdən istifadə edən düşmənlərimiz ötən əsrin 90-cı illərində Dağlıq Qarabağ və onun ətrafındakı rayonlarımızı işğal ediblər. Onların işğalçılıq siyasəti nəticəsində 23 ildir 1 milyon soydaşımız ata-baba yurdlarından didərgin düşüb. Cəbhənin təmas xəttində baş vermiş son hadisələrə toxunan tədbir iştirakçıları hərbçilərimiz tərəfindən torpaqlarımızın bir hissəsinin işğaldan azad edildiyini bildiriblər. Qeyd olunub ki, artıq dünya Azərbaycan ordusunun hansı gücə malik olduğunu hiss etməkdədir. Veteran döyüşçülər əmin ediblər ki, Azərbaycan ordusu Ali Baş Komandanın rəhbərliyi altında öz qüdrətini daim qoruyacaq, işğal altında olan torpaqlarımızı tezliklə azad edəcək.

Sonra şagirdlərin ifasında Vətənə, torpağa həsr olunmuş şeirlər səsləndirilib. Tədbir üçrəngli bayrağımızın səhnəyə gətirilməsi ilə başa çatıb.

# Ünvanlı sosial yardımın verilməsində yeni qaydalar

Binəqədi rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində aztəminatlı ailələrin sosial təminatının yaxşılaşdırılması istiqamətində bir sıra məqsədyönlü işlər görülüb. Belə ki, bu kateqoriyadan olan insanların təqaüd və müavinətlərinin ödənilməsində, ünvanlı dövlət sosial yardımları ilə təmin edilməsi sahəsində ciddi addımlar atılıb. Bu barədə qəzetimizə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Binəqədi rayon Əhalinin Sosial Müdafiə Mərkəzinin direktoru Rafiq İsayev məlumat verib.

Görülmüş işlərin nəticəsidir ki, bu ilin I rübü ərzində rayon üzrə 3042 ailəyə və ya 11847 nəfər ailə üzvünə ünvanlı sosial yardım təyin edilib. Direktor vurğulayıb ki, son illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səmərəli fəaliyyəti sayəsində əhaliyə müasir və şəffaf xidmətlər sisteminin qurulması üçün mühüm islahat tədbirləri həyata keçirilib. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq, ötən dövrdə nazirlik tərəfindən konkret Tədbirlər planı əsasında institusional və texniki səviyyələrdə işlər aparılıb və ünvanlı dövlət sosial yardımı (ÜSY) üzrə mükəmməl proqram təminatlarına əsaslanan Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) yaradılıb: " Bu il fevralın 15-dən mərkəzdə ÜSY ilə əlaqədar müraciət tamamilə elektron formada həyata keçirilir. Bu, vətəndaş və məmur təmasını sıfıra endirən bir hadisədir. Elə ölkə başçısının istədiyi də bu idi. Tam məsuliyyətimlə deyə bilərəm ki, hazırda ÜSY Binəqədi rayonunda şəfafflıq şəraitində həyata keçirilir.

Ən böyük çətinliyimiz bir sıra vətəndaşların kompüterdən istifadə edə bilməməsidir. Odur ki, nazirlik tərəfindən qarşımızda qoyulan tapşırığa əsasən, yeni qaydalarla bağlı əhali arasında maarifləndirmə işini davam etdiririk". Direktorun sözlərinə görə, hazırda Binəqədi ƏSMM-in əməkdaşları tərəfindən VEMTAS-a 750-dən artıq yeni iş daxil edilib: " Bu rəqəm son say deyil. Kompüter bacarığı olan vətəndaşlar sərbəst qaydada öz işlərini sistemə daxil edə bilirlər. Hələlik elektron müraciətlə 8 ailəyə ÜSY təyin edilmişdir. Yardımların təyinatında şəffaflığın və bu sahəyə ictimai nəzarətin təmin olunması üçün ünvanlı yardım alan ailələrin siyahısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytında, habelə Əhalinin Sosial Müdafiəsi Mərkəzinin xüsusi guşəsində (lövhədə) ictimaiyyətə açıqlanıb".

Ünvanlı dövlət sosial yardımının verilməsində tətbiq olunan yeni qaydalar barədə məlumat verən direktor qeyd edib ki, sosial yardımın alınması üçün elektron formada müraciət edən vətəndaş fərdi kommunikasiya vasitələrindən (kompüterlərdən, mobil telefon və s.), habelə bu məqsədlər üçün xüsusi olaraq qurasdırılmıs infoköşklərdən də istifadə edə bilər: "Kağız üzərində müraciət edən şəxs notariat orqanı tərəfindən təsdiq edilmiş "Ərizə"ni (1 nömrəli Əlavə) və "Ərizə bəyannamə"ni (2 nömrəli Əlavə) təmsilçinin qeydiyyat yeri üzrə Nazirlik yanında Dövlət Sosial



Təminat Xidmətinin rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinə təqdim edir. Müraciət üçün hər bir ailə üzvünün (uşaqlar da daxil olmaqla ) şəxsiyyət vəsiqəsi olmalıdır. Bundan sonra notariusdan etibarnamə alınmalıdır. Etibarnamə - 18 yaşına çatmış, əmək qabiliyyətli ailə üzvləri arasından könüllü olaraq seçilmiş şəxsin adına alınır və həmin şəxs ailəni təmsil edir. Etibarnamədə hər bir ailə üzvünün adı, soyadı, şəxsiyyət vəsiqəsinin seriyası qeyd olunmalıdır və onu 18 yaşından yuxarı şəxslər imzalamalıdırlar. Sosial yardim üçün müraciət zamanı qeydiyyatdan keçərkən həmin etibarnamə üzərində olan 13 rəqəmli kodu və təmsilçinin şəxsiyyət vəsiqəsinin seriyası daxil edilməlidir. Bundan sonra isə hər bir ailə üzvü barəsində məlumatlar verilən suallara uyğun olaraq doldurulur.

Kağız üzərindən edilən müraciət Mərkəz tərəfindən qəbul olunur. Müraciət qanunvericiliyin tələblərinə uyğun halda ünvanlı sosial yardım üzrə işçilər tərəfindən VEMTAS-a daxil edilərək gücləndirilmiş elekton imza ilə təsdiqlənir. Sosial yardımın alınması üçün müraciətlər VEMTAS tərəfindən 15 iş günü müddətində araşdırılır və müvafiq qərar qəbul edilir. Sosial yardım Azərbaycan ərazisində yaşayan və müraciətdən əvvəlki son 12 ay ərzində orta aylıq gəliri ehtiyac meyarı məcmusundan aşağı olan aztəminatlı ailələrə ehtiyac meyarının məcmusu ilə orta aylıq gəlirinin arasındakı fərq məbləğində təyin olunur.

VEMTAS tərəfindən qeyd edilmiş məlumatlar "Elektron Hökumət" portalı üzərindən 22 qurumla üzləşdirilərək yoxlanılır. Məlumatlarda uyğunsuzluq aşkar olunmadığı halda, VEMTAS tərəfindən ailəyə sosial yardımın təyin olunması barədə, uyğunsuzluq aşkar olunduğu hallarda isə sosial yardımın təyin olunmasından imtina edilməsi barədə qərar çıxarılır.

Sosial yardım təyin olunarkən ailənin aşağıdakı üzvləri nəzərə alınmır:

- tam dövlət təminatında olan şəxslər (uşaq evi və internatlarda, qocalar, əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində, xüsusi təhsil müəssisələrində yaşayan şəxslər);
- müddətli həqiqi hərbi xidmətdə olan şəxslər;
- cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər;
- axtarışda olan şəxslər;
- Azərbaycan Respublikası ərazisində yaşamayan Azərbaycan Respublikası vətəndaşları;
- əcnəbilər.

Aşağıdakı hallarda sosial yardımın təyin olunmasından imtina olunur:

- "Ərizə-bəyannamə"də qeyd edilmiş məlumatların yoxlanılması zamanı məlumatlarda uyğunsuzluq aşkar olunduqda ;
- Sosial yardım üçün müraciətdən əvvəlki ardıcıl gələn 12 ay ərzində ailənin aylıq gəliri hər bir ailə üzvü üçün ehtiyac meyarına bərabər olduqda və ya məcmusundan yuxarı olduqda ;
- Sosial yardım üçün müraciətdən əvvəlki ardıcıl gələn 12 ay ərzində respublika üzrə təsdiq edilmiş yaşayış minimumun 12 mislindən çox məbləğdə alqı-satqı etdikdə;
- Ailənin mülkiyyətində və ya istifadəsində nəqliyyat vasitəsi olduqda (dövlət tərəfindən reabilitasiya məqsədləri üçün verilmiş nəqliyyat vasitələri istisna olmaqla);
- Ailənin əmək qabiliyyətli, işləməyən üzvü Dövlət Məşğulluq Xidmətinin yerli orqanı tərəfindən təklif olunmuş 2 münasib işdən imtina etdikdə (bu halda ailənin sosial yardım hüququna onun təkrar müraciəti əsasında 1 aydan sonra baxılır);
- Ailənin adam başına düşən kommunal və rabitə xərclərinin cəminin orta aylıq məbləği ölkə üzrə təsdiq edilmiş yaşayış minimumunun 10 faizindən çox olduqda;
- Ailənin mülkiyyətində müxtəlif ünvanda 2 və daha çox eyni təsnifatdan daşınmaz əmlak olduqda.

VEMTAS tərəfindən sosial yardımın təyin olunması barədə qərar çıxarıldığı hallarda yardımın məbləği və təyin edilmə müddəti, təyin olunmasından imtina edilməsi barədə qərar çıxarıldığı hallarda isə imtinanın səbəbləri göstərilməklə qərarın çıxarıldığı gün təmsilçinin "Ərizə-bəyannamə"də qeyd etdiyi əks əlaqə vasitələrinin birinə göndərilir və ya bildirilir.

Sosial yardımın təyin olunması üçün əsas şərtlərdən biri ailənin gəlirlərinin düzgün hesablanmasıdır. Ailənin gəlirləri ailə üzvlərinin müraciətdən əvvəlki ardıcıl gələn 12 ay müddətində bütün növ gəlirlərinin, o cümlədən ailə üzvlərinə bağışlanmış hədiyyələr, mülkiyyətdən, ailə üzvlərinə məxsus əmlakdan, şəxsi yardımçı təsərrüfatdan əldə olunan və yaxud əldə oluna biləcək pul və natura formada gəlirlərinin toplusundan ibarətdir.

Ailənin gəlirlərinin hesablanması zamanı pul və natura formasında bütün növ gəlirlər, o cümlədən həm Azərbaycan Respublikasının ərazisində, həm də onun hüdudlarından kənarda istənilən mənbədən daxil olan milli və xarici valyutanın məbləği nəzərə alınır.

Ailənin gəlirlərinin hesablanması zamanı ailə üzvlərinin gəlirləri haqqında məlumatların düzgünlüyünü təsdiq edə biləcək bütün rəsmi və mənbəyi bəlli olan digər mənbələrdən (o cümlədən bilavasitə yerində araşdırmaqla) istifadə edilir.

Ailə üzvlərinin gəlirləri muzdlu işlə əlaqədar gəlirlərə, muzdlu işlə əlaqədar olmayan gəlirlərə, alınmış transferlərə və digər gəlirlərə bölünür.

Sosial yardımın verilməsinin dayandırılmasına səbəb ola biləcək hallar baş verdikdə (ailənin tərkibi və ya gəlirləri dəyişdikdə) sosial yardım alan ailə bu barədə elektron formada VEMTAS-a, kağız üzərində Mərkəzə 5 iş günü müddətində məlumat verməlidir. Təmsilçi vəfat etdikdə, ailənin tərkibində və gəlirlərində sosial yardım məbləginin dəyisdirilməsinə səbəb ola biləcək hallar baş verdikdə və ya sosial yardım ailə tərəfindən ardıcıl gələn 3 ay müddətində alınmadıqda sosial yardımın verilməsi dayandırılır və ailənin sosial yardım almaq hüququna yenidən baxılır.

Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 2 il müddətinə təyin olunur.

# Fiziki tərbiyə uşaqların sərbəst həyata hazırlığını təmin edir

Vətən anlayışı bəşər övladının yaranışı ilə meydana gəlib. İnsan yaranışdan sonra çoxalaraq Yer kürəsinin müxtəlif yerlərinə səpələnib. Bunun nəticəsində də tayfalar, qəbilələr, millətlər, xalqlar meydana gəlib. Daha sonra bu xalqların özünəməxsus daim yaşayış yeri, dili, adət-ənənələri və s. ortaya çıxıb. Beləliklə, zaman keçdikcə xalqlar daha da çoxalıb, onların coğrafi əraziləri də bir-birindən müəyyən məsafələrə ayrılmağa başlayıb. Nəticədə, insanlar məskunlaşdıqları yerləri "Vətən" adlandırıblar. Vətənpərvərlik insanın daxili aləmini bürüyən silinməz bir duyğudur. Vətəni sevmək hər kəsin olduğu yerdə üzərinə düşən vəzifələri kompleks şəkildə vicdanla yerinə yetirməsi deməkdir. Bu sevgi torpağa olan bağlılıqdan və hörmətdən qaynaqlanır. Ata-babalarımız məhz bu xüsusiyyətlərinə görə fərqləniblər. Bu Vətəni, bu torpağı onlar bizə əmanət qoyublar.

... Bu gün müstəqil respublikamızın inkişafı, ilk növbədə, böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaş kimi formalaşmasından asılıdır. Uşaqların vətənpərvər ruhda böyüməsində cəmiyyətin, mühitin rolu böyükdür. İstər ailədə, istər məktəbdə, istərsə də cəmiyyət daxilində aşılanan tərbiyənin əsas məqsədi kamil şəxsiyyət, insan, vətəndaş yetişdirməkdir.

Ümummilli lider Heydər Əliyev böyüməkdə olan gənc nəslin sağlamlığına qayğı göstərilməsini daim önə çəkmiş və bunu məktəblərin təxirəsalınmaz vəzifəsi hesab etmişdir. Ulu öndər Azərbaycan müəllimlərinin VI qurultayındakı nitqində demişdir: "Böyüməkdə olan nəslin fiziki inkişafına daha çox



diqqət verməli, bədən tərbiyəsinin tədrisi yaxşılaşdırılmalı, hər bir məktəbdə səmərəli idman məşğələləri üçün şərait yaradılmalı, uşaqlar fiziki cəhətdən hər vasitə ilə möhkəmləndirilməli, onların sağlamlığına qayğı göstərilməlidir. Biz respublikamızda əhalimizin, millətimizin sağlamlığı haqqında düşünürük. Bu, bizim vəzifələrimizin içərisində ən böyük, əhəmiyyətli vəzifədir".

...284 saylı orta məktəbin direktoru Nizami Novruzovun sözlərinə görə, əsl vətəndaş yetişdirmək bu gün təhsilimizin qarşısında böyük vəzifələr qoyur: "Bununla belə, dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil. Onlar bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir. Bu baxımdan, təbliğatın uğurlu və təsirli olmasında televiziyanın, ümumiyyətlə, mətbuatın rolu və xidməti əvəzolunmazdır. Televiziya kanallarında yayımlanan vətənpərvərlik proqramları, tariximizi əks etdirən verilişlər diqqətlə izlənilir. Hərbi xidmətə yolasalmanın televiziya vasitəsilə işıqlandırılması da orduya hazırlaşan gənclərin qəlbində müəyyən izlər buraxır. Özündən cəmi bir neçə yaş böyük olan tay-tuşlarını hərbi formada görən gənclərin orduya marağı istər-istəməz çoxalır. Gənc nəslin orduya hazırlığı barədə danışarkən orta məktəblərdə tədris olunan fiziki tərbiyə dərslərinin rolunu da qeyd etmək yerinə düşər. Müharibə şəraitində olan ölkəmizdə böyüməkdə olan nəslin fiziki tərbiyəsi aktuallıq nöqteyi-nəzərindən müstəsna əhəmiyyət kəsb edir. Hazırda ölkəmizdə istiqlaliyyətimizi qorumaq və inkişaf etdirmək arzusunda olan gənc nəsil yetişib. Bu nəslin fiziki tərbiyəsinin əsası heç şübhəsiz ki, məktəblərdə qoyulur. Bədən tərbiyəsi dərsləri orta ümumtəhsil məktəblərindən başlayaraq tədris edilir və bu, bir həqiqətdir ki, Azərbaycan dövləti sağlam gənc nəsil tərbiyə etməyə böyük əhəmiyyət verir. Respublikamızın hər bir guşəsində olduğu kimi, Binəqədi rayonunda da ibtidai məktəb yaşından başlayaraq uşaqların fiziki tərbiyəsinə çox ciddi yanaşılır. Məktəblərdə fiziki tərbiyə işləri bədən tərbiyəsi proqramları əsasında təşkil olunur. Təhsil müəssisələrində hər bir sinif üçün nəzəri və təcrübi proqram bölmələri vardır. Proqram tədris materialları tədricən çətinləşdirilir və ardıcıllıqla öyrədilir. Bu da uşaqların orta məktəbi bitirərkən tam sağlam olmasını, həyata hazırlığını təmin edir".

297 saylı orta məktəbin fiziki tərbiyə müəllimi Sultan Kərimov bizimlə söhbətində bildirdi ki, məktəblilərin hərtərəfli fiziki inkişafı üçün sadə bədən tərbiyəsi hərəkətlərindən istifadə olunur. Əlbəttə, bu zaman uşaqlardan heç bir normativ tələb olunmur. Sadəcə, onlara bədən tərbiyəsi və idmanın "əlifba"sı öyrədilir: "Ölkəmizin orta ümumtəhsil məktəblərində keçirilən fiziki tərbiyə dərslərində təxminən bir milyon şagird iştirak edir. Bu, bir milyon gənc vətəndaşın sağlamlığının qorunması deməkdir. Məktəbimizdə sinifdən və məktəbdənkənar kütləvi bədən tərbiyəsi və idman işləri də təşkil olunur. Məktəblilər idman bölmələrinə, müxtəlif növ yarışlara, kütləvi idman tədbirlərinə cəlb edilirlər. Fiziki tərbiyə tədbirləri uşaqların iradəsinin də möhkəm olmasına zəmin yaradır. Fiziki cəhətdən sağlamlıq şagirdlərə "Vətənin müdafiəsinə hazıram" bədən tərbiyəsi kompleksinin normativlərini yerinə yetirilməsində köməklik göstərir. Bədən tərbiyəsi fiziki tərbiyənin tərkib hissəsidir. O, uşaq orqanizminə mütəşəkkil təsir göstərən pedaqoji proses kimi bütün orqanların düzgün inkişafına, onların funksiyalarının təkmilləşməsinə, sağlamlığın möhkəmləndirilməsinə xidmət edir".

Şagirlərə həyatdan, əməkdən yaranan estetikanı başa salmaq üçün bütün imkanlardan, o cümlədən bədən tərbiyəsinin bütün vasitələrindən istifadə etmək zəruridir. S.Kərimovun sözlərinə görə, bədən tərbiyəsi məşğələlərinin estetik cəhətdən düzgün qurulması şagirdlərin idman geyimlərinin münasibliyindən, məşğələ yerinin, geyinib-soyunma otaqlarının səliqəli olmasından, bədənin təmiz saxlanmasından asılıdır: "Məşğələlər zamanı istifadə olunan idman geyimlərinin eyni rəngdə olması şagirdlər arasında nizam-intizam qaydalarının əsasını təşkil edir. Bu geyimlər bədəni sıxmamalı, vaxtlı-vaxtında yuyulmalı, ütülənməli və yalnız dərs zamanı geyinilməlidir. Geyim şagirdlərin zahiri görkəmini gözəlləşdirir və zövqünü inkişaf etdirir. İdman zalının geniş və səliqəli olması, alət və qurğuların şagirdlərin yaşına uyğun seçilib yerləşdirilməsi də onların estetik zövqünün inkişafına zəmin yaradır".

Heç şübhəsiz, bədən tərbiyəsi və idman sağlamlığı uzun müddət saxlayan, ömrü uzadan faydalı vasitədir. İdman insanda sevinc hissi oyadır, əzələləri möhkəmləndirir, enerjini artırır, gümrahlıq və şənlik gətirir. Bir sözlə, bədən tərbiyəsi və idman uşaqların fiziki sağlamlığının bünövrəsini qoyur. Bu sağlamlıq hərbi xidmətə hazırlaşan gənclər üçün çox vacibdir. Çünki məhz sağlam bədənə malik olan gənclər yurdumuzun sərhədlərinin keşiyində ayıqsayıq dayanacaqlar.

## Yollarda təmir işləri davam etdirilir



Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən, uzun müddətdir ki, təmir olunmayan küçə və prospektlərin, avtomobil yollarının təmir olunaraq avtonəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkətini təmin etmək çərçivəsində "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Azadlıq prospektinin təmiri işlərinə başlanılıb. İlkin mərhələdə Ziya Bünyadov prospekti ilə kəsişməsindən Biləcəri-Baksol avtomobil yolunun kəsişməsinədək olan 3,2 kilometrlik hissəsi təmir olunacaq. İkinci mərhələdə isə prospektin Biləcəri-Baksol avtomobil yolu ilə kəsişməsindən Binəqədi qəsəbəsinədək olan 2,6 kilometrlik hissəsinin təmir edilməsi planlaşdırılır. Təmir işlərinin ümumi avtonəqliyyat vasitələrinin axınına az təsir etməsi üçün hissə-hissə və yalnız bir istiqamət üzrə müəyyən ərazidə hərəkətin məhdudlaşdırılması tətbiq olunur. Bu müddət ərzində sürücülərdən xahiş olunur ki, mümkün qədər hərəkət istiqamətlərinə uyğun alternativ yollar seçsinlər.

Təmir işləri çərçivəsində prospektin köhnə asfalt-beton örtüyünün üst qatı qaşınaraq ərazidən daşınır. Bunun əvəzinə ikiqat olmaqla yüksək keyfiyyətli asfalt-beton örtüyünün döşənməsi işləri həyata keçiriləcək. Ümumilikdə, 50 min kvadratmetr ərazinin asfaltlanması planlaşdırılır.

Bundan başqa, təmir işləri zamanı səth sularının kənarlaşdırılması üçün nəzərdə tutulmuş yağış-kanalizasiya sistemi və barmaqlıqlar yenilənəcək, kommunikasiya xətlərinin dəmir-beton plitələri qaldırılaraq baxış qapaqları və yol boyu köhnə səki daşları yeniləri ilə əvəzlənəcək, mövcud piyada səkiləri bərpa olunacaq.

Prospektin təmir işləri aparılan hissəsində yerləşən köhnə avtobus dayanacaqlarının ərazisi genişləndirilərək xüsusi "cib"li dayanacaqların yaradılması nəzərdə tutulub. Dayanacaqların uzunluğu 20 metr, eni isə 3,5 metr olacaq.

# Heydər Əliyev Mərkəzinə ekskursiya



Mayın 6-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə ulu öndərin azərbaycançılıq məfkurəsinin məktəblilər arasında geniş təbliğ edilməsi, onlarda müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi, uşaq və yeniyetmələrin milli, mənəvi, əxlaqi dəyərlərimizə sevgi ruhunda tərbiyə olunması məqsədilə "Gənclərin Həmrəyliyinə Dəstək" İctimai Birliyi və Binəqədi rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə rayonda fəaliyyət göstərən 83 №-li məktəb-liseyin şagirdlərinin Heydər Əliyev Mərkəzinə ziyarəti təşkil olunub.

Mərkəzdə məktəblilərə ümummilli liderin həyat və yaradıcılığı barədə ətraflı məlumat verilib.

# "Heydər zirvəsi"nə yürüş





Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə əlaqədar Binəqədi rayonunun fəal gəncləri - Nərgiz Qurbani və Nizami Babayev Böyük Qafqazın Başdağ silsiləsinin Qızıl Qaya massivində dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə yürüş ediblər. Xatırladaq ki, "Heydər zirvəsi"nə yürüş hər il ənənəvi olaraq keçirilir. Yürüşdə bölgələrdən, nazirlik, müəssisə, idarə və təşkilatlardan çoxlu ziyarətçi, o cümlədən turistlər iştirak edir.

# "Unudulmaz" filminin təqdimatı olub



Mayın 10-da Lider televiziyası və Nizami Kino Mərkəzinin birgə təşkilatçılığı ilə Nizami Kino Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə «Unudulmaz» sənədli filminin təqdimat mərasimi keçirilib. Tədbirdə Binəqədi rayon ictimaiyyətinin nümayəndələri də iştirak ediblər.

Təqdimat mərasimində ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövlət qarşısında misilsiz xidmətlərindən ətraflı bəhs olunub. Bildirilib ki, dahi şəxsiyyət haqqında çoxsaylı filmlər hazırlanıb, əsərlər yazılıb.

# "Xəmsə" Milli İntellektual turniri

YAP Gənclər Birliyi və partiyanın Binəqədi rayon təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə Bakı şəhərinin rayonları və Sumqayıt şəhərinin partiya gəncləri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Xəmsə" Milli İntellektual turniri keçirilib.

Yarışın yekun nəticəsinə görə, YAP Binəqədi rayon təşkilatını təmsil edən komanda birinci olub. Sumqayıt şəhərinin komandası ikinci, Xəzər rayonunun komandası isə üçüncü yerdə qərarlaşıb.



# Gənc psixoloqların ümumrespublika forumu



"ASAN Könüllüləri" Gənclər təşkilatı, "Gənc psixoloqlar" İctimai Birliyi və Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən təşkil olunan Azərbaycan Gənc Psixoloqların I Respublika Forumu keçirilib. Tədbiri giriş sözü ilə açan "Gənc psixoloqlar" İctimai Birliyinin sədri Orxan Oruczadə forumun keçirilməsi məqsədi barədə iştirakçılara məlumat verib.

"Psixi sağlamlıq istiqamətində həyata keçirilən tədbirlərin dövlətin inkişafında rolu" və "Psixologiya elminin tətbiqi sferalarının inkişafı və təkmilləşdirilməsi istiqamətində görülən işlərin təhlili" mövzuları üzrə iki paneldən ibarət olan forumun birinci panelində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Fuad Muradov, Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev və "ASAN Könüllüləri" təşkilatının sədri Fərid Sadıxlı çıxış edərək, tədbirin əhəmiyyətindən və bu gün ölkəmizdə psixi sağlamlığın möhkəmləndirilməsi istiqamətində aparılan işlərdən danışıblar, forum iştirakçıları tərəfindən verilən sualları cavablandırıblar.

İkinci paneldə isə Psixoterapevt Nisə Abdullayeva, Bakı Dövlət Universitetinin müəllimi Səyyarə Yusubova, "Gənc psixoloqlar" İctimai Birliyinin nümayəndələri Aidə Səlim, Aytac Abbasbəyli, "İstək" liseyinin psixoloqu Sevda Cəlilzadə mövzu ətrafında çıxışlar ediblər.

Tədbirin sonunda "Gənc psixoloqlar" İctimai Birliyi və "ASAN Könüllüləri" Gənclər təşkilatı arasında psixi sağlamlıq istiqamətində müxtəlif tədbirlərin həyata keçirilməsini və gənc mütəxəssislərin formalaşdırılmasını nəzərdə tutan əməkdaşlıq memorandumu imzalanıb.

# Məktəblilər inşa müsabiqəsində



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Binəqədi Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə 100 №-li tam orta məktəbdə böyüməkdə olan gənc nəsil arasında Heydər Əliyev irsini təbliğ etmək, istedadlı şagirdlərin inşa yazı sahəsində öz yaradıcılıqlarını nümayiş etdirmələri üçün şəraitin yaradılması məqsədilə "Azərbaycan Səninlədir, Sənsiz deyil" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. İnşa yazıları xüsusi hazırlanmış və kodlaşdırılmış dəftərlərdə yazılıb və Bakı Humanitar Kolleci tərəfindən təsdiq olunmuş münsiflər heyəti tərəfindən yoxlanılıb.

Müsabiqənin nəticəsinə görə, 157 №-li tam orta məktəbin 10a sinif şagirdi Qaratel Əfənli 1-ci yerə layiq görülüb. 248 №-li məktəbin 11a sinif şagirdi Aydan Quliyeva 2-ci, 179 №-li məktəbin 10a sinif şagirdi Xədicə İsmayılova 3-cü yerdə qərarlaşıb. 205 №-li məktəbin 10-cu sinif şagirdi Arzu Qurbanzadə, 267 №-li məktəb-liseyin 9b sinif şagirdi Gülnar Seyidli, 284 №-li məktəbin 10c sinif şagirdi Ləman Abdullayeva, 3 №-li məktəbin 9ç sinif şagirdi Lumu İsrafilli və 298 №-li məktəbin 9c sinif şagirdi Nübar Cəfərova isə fərqlənənlər sırasında yer alıblar.

# Aprelin ayında SMX-ya daxil olan müraciətlər



Bu ilin aprel ayı ərzində Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidmətində (SMX) cavablandırılan zənglərin sayı 2690, birbaşa cavablandırılan zənglərin sayı 1983, yaradılan əks əlaqələrin sayı 803, günlük orta zəng sayı 78, tərtib edilən şikayət vərəqələrinin sayı 707 olub. Şikayət xarakterli müraciətlərin 707-nin icrası təmin edilib, o cümlədən 601-i və ya 85%-i tam həll olunub, 58 -i və ya 8,2%-i qismən həll edilib, 48-i və ya 6,8%-i ilə bağlı müvafiq izahat verilib.

Ötən ay üzrə daxil olmuş şikayətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə onlardan 331-i və ya 46,8%-i su-kanalizasiya, 240-ı və ya 33,9%-i qaz təchizatı, 69-u və ya 9,8%-i lift problemləri, 25-i və ya 3,5%-i sakinləri narahat edən digər məsələlər, 16-sı və ya 2,3%-i elektrik təchizatı ilə bağlı, 11-i və ya 1,6%-i məişət tullantıları ilə əlaqədar, 6-sı və ya 0,8%-i yaşıllaşdırma idarəsi, 5-i və ya 0,7%-i istilik təchizatı, 4-ü və ya 0,6%-i küçələrin işıqlandırılması idarəsi ilə əlaqədar olub.

Xidmətə ay ərzində 21 təşəkkür müraciəti daxil olub.

Binəqədi Rayon İcra Hakimiyyətinin

Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!

www.binegedi-ih.gov.az

İDMAN

## Dördnövçülük üzrı rayon birinciliyi

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının "Binəqədi rayon məktəblilərinin XXVIII Spartakiadasının keçirilməsi haqqında" 2015-ci il 29 sentyabr tarixli 181 nömrəli sərəncamına uyğun olaraq, 244 №-li tam orta məktəbdə rayon orta ümumtəhsil məktəblərinin 7-8-ci sinif şagirdləri arasında dördnövçülük üzrə qızlar və oğlanlar arasında rayon birinciliyi keçirilib.

Ümumilikdə 260 nəfər məktəblinin iştirak etdiyi yarışın yekun nəticəsinə əsasən, 244 №-li tam orta məktəbin komandası I yeri tutub. 267 və 284 №-li məktəblərin komandaları isə 2-3-cü yerləri bölüşdürüblər.



## Futbol çempionatının final mərhələsi



Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi və Binəqədi rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə mayın 10-da 115 №li tam orta məktəbin stadionunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibəti ilə Binəqədi rayon orta ümumtəhsil məktəblərinin 8-9-cu sinif şagirdləri arasında futbol üzrə rayon çempionatının final mərhələsi keçirilib. Yarışda 18 komandanın tərkibində 16 nəfər olmaqla ümumilikdə 288 nəfər iştirak edib. Çempionatın yekun nəticəsinə əsasən, 205 №li məktəbin komandası fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. 283 və 126 №li məktəbin komandaları isə müvafiq olaraq 2-3-cü yerləri bölüşüblər.